RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 204 (9371) 21 SENTYABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## İlham Əliyev Rəcəb Tayyib Ərdoğana təşəkkür edib

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirib. Dövlət başçısı bu barədə sosial şəbəkə hesablarında paylaşım edib.


İlham Əliyev
@azpresident

**Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir.**
Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər.
Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik.
Şuşa bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. **Siz də, mən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq.**

İLHAM ƏLİYEV

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklif etdiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş keçiriləcək.

## Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üçün bölgədə son vəziyyətə dair brifinq keçirilib



Sentyabrın 20-də Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və xarici işlər nazirinin müavini Fariz Rzayevin iştirakı ilə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.

→ 3

## Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub

Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.



# Antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir

### Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV:

- **Antiterror tədbirləri nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır.**
- **İkinci Qarabağ müharibəsindən sonra 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olub.**
- **Mənim tərəfimdən hərbi birləşmələrimizə Qarabağda mülki əhalinin qorunmalı olması ilə bağlı ciddi tapşırıq verilmişdi.**
- **Bizim sözümüz imzamız qədər dəyərlidir.**
- **Qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır.**
- **Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır.**
- **Bölgəmizdə yeni vəziyyətin yaranması labüddür.**
- **Əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək.**
- **Kriminal rejimin ünsürlərinin bəziləri artıq öz layiqli cəzasını alıb, bəziləri də alacaqlar.**
- **Azərbaycan azad cəmiyyətdir, çoxmillətli, çoxkonfessiyalı dövlətdir.**
- **Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb.**
- **Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz.**

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

## Prezident İlham Əliyevin xalqa müraciəti

- Əziz həmvətənlər.

Bildiyiniz kimi, dünən səhər erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşı, onlardan ikisi mülki şəxs mina terrorunun qurbanı olmuşdur. Birinci dəfə deyil ki, bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur, ya da ki, ağır yaralanmışdır.

Dünənki terror aktı bu sıradan olan hadisə idi. Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilmiş və müxtəlif yerlərdə basdırılmışdır. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilmiş və onlardan ciddi tədbir görülməsi tələb edilmişdir. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni, bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir.

Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir.

Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

→ 2

## Entoni Blinken Prezident İlham Əliyevə zəng edib



**Sentyabrın 19-da ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə əvvəlcədən minaların quraşdırılması, nəticədə mülki şəxslərin və polis əməkdaşlarının həlak olması, həmçinin ordumuzun bölmələrinin minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması faktlarını qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində sentyabrın 9-da qondarma "prezident seçkiləri"nin keçirilməsi də daxil olmaqla, bu hərəkətlərin Azərbaycanın suverenliyinə qarşı Ermənistanın və onun yaratdığı və dəstəklədiyi qondarma separatçı qurumun məqsədyönlü təxribatlarının davamı olduğunu vurğulayıb.

Azərbaycan Prezidenti bildirib ki, bu kimi təxribatçı və təhrikçi əməllərin qarşısının alınması üçün Azərbaycan bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlamalı olub.

Dövlətimizin başçısı vurğulayıb ki, antiterror tədbirlərinin həyata keçirilməsi zamanı mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Reinteqrasiya məsələlərini müzakirə etmək üçün Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələrinin bir neçə dəfə dialoqa dəvət olunduğu, lakin onların bundan imtina etdiyi, bununla belə lokal xarakterli antiterror tədbirlərinin davam etdiyi vaxtda onların bir daha dialoqa dəvətin edildiyi diqqətə çatdırılıb. Dövlətimizin başçısı silahın yerə qoyulduğu və tərk-silah olunduğu halda antiterror tədbirlərinin dayandırılacağını deyib.

ABŞ Dövlət katibi Entoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, atəşkəsin əldə olunmasına çağırıb və Bakı ilə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri arasında birbaşa dialoqun Amerika Birləşmiş Ştatları tərəfindən dəstəkləndiyini bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## "Dəmir yumruğ"un ağıllandırma tədbirləri

**Müzəffər Ali Baş Komandan İlham Əliyev sözünün və imzasının sahibidir!**

**Başqalarından da bunu gözləyir və tələb edir!**

Paşinyanın günlərlə davam edən yalvar-yaxarı, onun-bunun dabanını yalaması və son nəticədə 44 günlük müharibədə hərbi əməliyyatların dayanması Rusiya Prezidenti V.Putinin zəmanəti ilə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması sayəsində gerçəkləşdi!

Quyruğu qapı arasından çıxan Paşinyan çox keçmədən nalamıxa vurmağa, öhdəliklərindən müxtəlif bəhanələrlə boyun qaçırmağa, hətta Rusiyaya dirsək göstərməyə başladı!

❖ ❖ ❖

**Səbrin və dözümün də həddi olur!**

**Azərbaycan kifayət qədər gözlədi, səbir etdi!**

Lokal antiterror tədbirlərinin başa çatmasının şərtləri isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən açıqlandı:

- Qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı!
- Bütün silahlar təhvil verilməli!
- Qanunsuz separatçı rejim özünü buraxmalıdır!

Bu yolda sarsılmaz milli birlik nümayiş etdirən Azərbaycan xalqı və cəmiyyəti Müzəffər Ali Baş Komandanın arxasında möhkəm dayandı, 44 günlük möhtəşəm sınaqdan zəfərlə çıxan ordumuz isə qarşısına qoyulan vəzifəni sonadək, uğurla yerinə yetirdi!

❖ ❖ ❖

44 günlük Vətən müharibəsində olduğu kimi, Azərbaycan Ordusu lokal antiterror tədbirlərini də ən qısa müddətdə başa çatdırdı.

Qeyri-qanuni erməni terrorçu birləşmələrinin təslim olması barədə razılıq əldə olundu!

→ 5

# Antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir



*Əvvəli 1-ci səh.*

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Bir daha qeyd etmək istəyirəm ki, aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır. Onu da bildirməliyəm ki, Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır. Halbuki dəfələrlə həm Ermənistan rəhbərliyi ilə təmaslar əsnasında, eyni zamanda beynəlxalq tədbirlərdə yüksək kürsülərdən mən dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etmişdim. 10 noyabr üçtərəfli Bəyanatı, əslində, Ermənistan dövlətinin kapitulyasiya aktı idi və bu kapitulyasiya aktına görə Ermənistan Azərbaycan ərazilərindən bütün silahlı qüvvələrini çıxarmalı idi. Ancaq bundan imtina edirdi.

Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Əməliyyatın uğurlu gedişatı, təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.

Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu və onu da bildirməliyəm, indi saat yeddiyə beş dəqiqə işləyir.

Artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən onlar bizim şərtimizi qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar. Sual olunur. Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır. Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?! Bütün İkinci Qarabağ müharibəsi başa çatandan sonra əldə edilmiş üçtərəfli şifahi razılaşmalara rəğmən bu ayın 9-da Qarabağda saxta "seçkilər" keçirildi, saxta "prezident" seçildi, dırnaqarası prezident. Həmin o şəxs dərhal bəyan etdi ki, onlar statusun dalınca qaçacaqlar. Yəqin ki, mənim sözlərim onların yadından çıxıb. İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmirdik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi.

İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət, rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Yevlax şəhərində mənim nümayəndəmlə Qarabağ icmasının nümayəndələrinin görüşü əsnasında biz öz baxışlarımızı, gələcək birgə yaşayış baxışlarımızı onlara çatdıracağıq. Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax, bu gözəl abhava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib - elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!

Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir.

Ermənistan bu dövr ərzində - dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək.

Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlərboyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!

## Şarl Mişel Prezident İlham Əliyevə zəng edib



**Sentyabrın 20-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı regiondakı vəziyyət barədə fikir mübadiləsi aparılıb. Şarl Mişel regionda baş vermiş hadisələrdən narahatlığını ifadə edib.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin dünən terror aktları törətdiklərini, nəticədə polis əməkdaşlarının və mülki şəxslərin həlak olduğunu bildirib, buna cavab olaraq Azərbaycanın lokal xarakterli antiterror tədbirləri görməli olduğunu qeyd edib.

Dövlətimizin başçısı bu gün antiterror tədbirlərinin dayandırılması ilə bağlı əldə edilmiş razılaşmaya toxunaraq, Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çıxarılmasının, qanunsuz silahlı dəstələrin silahı yerə qoymasının və tərk-silah edilməsinin, Yevlaxda keçiriləcək görüşün müsbət addım olduğunu bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Yevlax görüşündə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağ ermənilərinin hüquqları və öhdəlikləri ilə əlaqədar, o cümlədən onların mədəni, dini, bələdiyyə və digər hüquqları ilə bağlı məsələlər müzakirə ediləcək. Dövlətimizin başçısı bildirib ki, bunu Azərbaycan öz daxili işləri kontekstində həyata keçirir.

Azərbaycan Prezidenti regional sülh gündəliyinin dəstəklənməsinin əhəmiyyətinə toxunub, birtərəfli addımların atılmasının tamamilə əks effekt yarada biləcəyini deyib. Dövlətimizin başçısı vurğulayıb ki, əldə edilmiş nəticələr Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqların da irəli aparılmasına müsbət təsir göstərəcək.

Avropa İttifaqı Şurasının prezidenti antiterror tədbirlərinin dayandırılmasını müsbət hal kimi qiymətləndirib, atəşkəs rejiminin təmin olunacağına ümidvarlığını ifadə edib. Şarl Mişel həmçinin Yevlaxda keçiriləcək görüşü də müsbət dəyərləndirib.

***Prezidentin Mətbuat Xidməti***

## *Hikmət HACIYEV:* "Qarabağda qanunsuz erməni birləşmələrinin silahsızlaşdırılması hərbi mütəxəssislər tərəfindən həyata keçiriləcək"

"Qarabağın mülki əhalisinin nümayəndələri olan şəxslərlə Azərbaycanın Yevlax şəhərində görüşməyə hazır olduğumuzu bir daha ifadə edirik. Bu, Azərbaycanın təşəbbüsüdür. Təəssüflər olsun ki, bu təşəbbüsü bir neçə ay bundan öncə də yerinə yetirmək olardı. Amma onlar hər bir vəchlə, müxtəlif bəhanələrlə bu pozitiv gündəliyin həyata keçirilməsinə imkan vermirdilər və problemlər yaradırdılar".




AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

O deyib: "Azərbaycanın mövqeyi ondan ibarətdir ki, regional məsələlər regionda həll edilməlidir. Azərbaycan bu gündəliyin tərəfdarıdır. Digər ölkələrin özləri arasındakı geosiyasi rəqabəti və problemləri Cənubi Qafqaza daşımalarına ehtiyac yoxdur. Onsuz da Cənubi Qafqaz regionu uzun illərdir münaqişələrdən, təhlükələrdən əzab çəkib. Ermənistan da regionda bu kimi siyasətlərin həyata keçirilməsində alət olmamalıdır. Təəssüflər olsun ki, Ermənistan bu kimi funksiyaları yerinə yetirməyə bir çox hallarda niyyətli görünür. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hibrid müharibə son dövrlərdə istər media müstəvisində, istər diplomatik cəbhədə və real olaraq yerdə özünü göstərməkdədir. Qeyri-sülh gündəliyinin bütün komponentləri üzrə, yəni Azərbaycan-Ermənistan sülh müqaviləsi, sərhədlərin delimitasiyası və nəqliyyat xətlərinin açılması məsələləri üzrə tamamilə qeyri-konstruktiv bir mühit yaranıb. Bunun da günahkarı Ermənistan tərəfidir".

H.Hacıyev bildirib ki, Ermənistanın üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərin tərkib hissələrindən biri də Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın birləşdirilməsinin təmin edilməsi idi. Amma Ermənistan bu öhdəliyini də yerinə yetirmir və hər bir vəchlə Zəngəzur dəhlizinin açılmasına problemlər yaratmaqda davam edir. Qarabağda olan qanunsuz erməni birləşmələrinin silahsızlaşdırılması hərbi mütəxəssislər tərəfindən yerində həyata keçiriləcək. Onun işçi mexanizmlərinin hazırlanması aparılır.

# BP Azərbaycanda olan tərəfdaşlarla əməkdaşlıqda maraqlı və qətiyyətlidir

## Prezident İlham Əliyev bp şirkətinin İdarə Heyətinin sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də bp şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul edib.



AZƏRTAC xəbər verir ki, görüşdə bp şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən şirkətin sabiq baş icraçı direktoru Lord Con Filip Braun iştirak ediblər.

Söhbət zamanı 20 sentyabr - "Əsrin müqaviləsi"nin imzalandığı günün önəmi qeyd edildi, bunun ölkəmizin inkişaf tarixində çox mühüm bir səhifə olduğu vurğulandı. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalandığı və Azərbaycanda neft işçilərinin peşə bayramı kimi qeyd edilən Neftçilər Günündə bu görüşdə bp şirkətinin rəhbərliyinin, həmçinin tarixi müqavilənin birbaşa iştirakçısı və uzun illər bp şirkətinin rəhbəri olan Lord Con Filip Braunun iştirakını yüksək qiymətləndirərək Azərbaycan ilə şirkət arasında həyata keçirilən uzunmüddətli sıx, səmərəli və strateji əməkdaşlığın tarixinə toxundu. Dövlətimizin başçısı bunu investorlar və investisiya qoyulan ölkə arasında olan əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu əməkdaşlığın qarşılıqlı inam, etimad və faydaya əsaslandığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın keçdiyi çətin və tarixi sınaq dövründə ölkədə iqtisadi inkişaf yolunun əsasının qoyulmasında 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin xüsusi rolunu vurğuladı.

Ölkəmizin sosial-iqtisadi nailiyyətlərində neft-qaz sektorunun xüsusi önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilmiş və nəzərdə tutulan regional və qlobalmiqyaslı layihələrdən danışdı.



bp şirkətinin sabiq baş icraçı direktoru Lord Con Filip Braun "Əsrin müqaviləsi"nin imzalandığı həmin çətin dövrdə məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi sayəsində investisiya qoyuluşu üçün mövcud risklərin dəf edildiyini və beləliklə, bunun nəticəsində bu mühüm müqavilənin imzalandığını böyük məmnunluqla xatırlatdı. Şirkətin nümayəndələri ölkəmizin mürəkkəb dövründə "Əsrin müqaviləsi"nin Ümummilli Liderin qətiyyətli və məharətli siyasəti nəticəsində ərsəyə gəldiyini vurğuladılar, Azərbaycanın enerji ehtiyatlarının inkişafında bu müqavilənin rolundan bəhs etdilər.

Onlar qeyd etdilər ki, müasir dövrdə Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinə Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə yaradılan infrastruktur böyük töhfə verib və irimiqyaslı layihələrin qısa müddətdə həyata keçirilməsini şərtləndirib. Vurğulandı ki, ölkəmizdə icra olunan layihələrdə tətbiq edilən mühəndislik, ətraf mühitin qorunması və digər standartlar bp-nin fəaliyyət göstərdiyi dünyanın digər bölgələrindəki standartlar səviyyəsindədir və ya onlardan da üstündür. Bu da ölkəmizin neft-qaz sahəsində zəngin insan kapitalının mövcudluğu hesabına mümkün olub.

Azərbaycanın dünyanın ən qədim neft-qaz sənayesinə malik olduğunu deyən qonaqlar bu sənayenin ən müasir səviyyəyə çatdırılmasında ölkəmizin beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığına və strateji baxışına toxundular.

Söhbət zamanı bp şirkətinin Azərbaycanda neft-qaz və enerji sahələrində gələcək layihələrdə də maraqlı olduğu vurğulandı, yeni sərmayə qoyuluşu imkanları müzakirə edildi. Qlobal enerji keçidi nəzərə alınaraq, bp-nin Azərbaycanda olan tərəfdaşlarla, o cümlədən SOCAR ilə əməkdaşlıqda, yeni bərpaolunan enerji layihələrinin həyata keçirilməsində maraqlı və qətiyyətli olduğu bir daha diqqətə çatdırıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonda Lord Con Filip Braun Ulu Öndərlə olan xatirə fotosunu dövlətimizin başçısına təqdim etdi.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üçün bölgədə son vəziyyətə dair brifinq keçirilib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, brifinq zamanı aşağıdakı əsas məqamlar diqqətə çatdırılıb.

■ Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törədib.

■ Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıb. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb.

■ Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak olub.

■ Erməni silahlı qüvvələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib.

■ Sadalanan amillər fonunda, Qarabağ iqtisadi rayonunda yerləşdirilmiş erməni silahlı qüvvələrinin təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.




■ Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

■ Antiterror tədbirləri müstəsna olaraq qanunsuz hərbi birləşmələri və hərbi infrastrukturu hədəf alıb. Mülki əhali və obyektlərə heç bir halda hücum edilməyib. Bununla bağlı hər hansı iddia əsassız və qəbuledilməzdir.

■ Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yaşayış yerlərinin yaxınlığında hərbi infrastrukturun yerləşdirilməsini nəzərə alaraq, Azərbaycan ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırıb. Mobil SMS xidməti, səsgücləndirici texniki vasitələr və məlumat vərəqələri vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinləri müvafiq olaraq məlumatlandırılıb.

■ Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüququn normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunub.

■ Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb.

■ Azərbaycan tərəfi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsinin regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olduğunu dəfələrlə bəyan edib.

■ Bölgədə sülhə və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

■ Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olaraq istənilən hərbi mövcudluq regional sülh və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın hərəkətləri müstəsna olaraq bu qanunsuz qüvvələrin sıradan çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib.

■ Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

■ Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərk-silah olunmalıdır.

■ Razılaşmanın icrası Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçiriləcəkdir.

■ Sentyabrın 21-də Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələri ilə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları çərçivəsində reinteqrasiya məsələlərini müzakirə etmək üçün görüş keçiriləcək.

## Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin ləğvi və "Bakı şəhərində körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 11 may tarixli 635 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv edilsin.

2. "Bakı şəhərində körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 11 may tarixli 635 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 428) 2-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2023-cü il*

## *Polkovnik Anar EYVAZOV:* "Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub"



Sentyabrın 20-də Müdafiə Nazirliyi tərəfindən media nümayəndələri üçün növbəti brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, Mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov brifinqdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri barədə indiyədək olan məlumatları diqqətə çatdırıb.

Bildirib ki, tədbirlər çərçivəsində qarşı tərəfə məxsus növbəti hərbi təyinatlı texnika, döyüş mövqeləri və sığınacaqlarının zərərsizləşdirilməsi həyata keçirilib. Bununla bağlı videomateriallar mütəmadi olaraq ictimaiyyətə təqdim olunub.

Bu saata olan məlumata əsasən, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı Qüvvələrimizin nəzarətinə keçirilib. Eyni zamanda qarşı tərəfə məxsus 7 ədəd hərbi nəqliyyat vasitəsi, 4 ədəd minaatan, 1 ədəd tank, 2 ədəd piyadanın döyüş maşını (PDM) və xeyli sayda silah-sursat Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq ələ keçirilib.

Qeyd olunub ki, silah-sursatı tükənən Ermənistan silahlı qüvvələri birləşmələrinin hərbi qulluqçuları pərakəndə şəkildə təşviş içində döyüş mövqelərini tərk edirlər. Bu faktlar təqdim etdiyimiz videoda da əksini tapıb.

Tədbirlər zamanı Ermənistan tərəfinin mütəmadi olaraq müxtəlif məzmunlu yalan məlumatlar yaydığını söyləyən Anar Eyvazov ictimaiyyətə, media mənsublarına və sosial media istifadəçilərinə qarşı tərəfin dezinformasiyalarına əhəmiyyət verməməyi və Müdafiə Nazirliyi tərəfindən paylaşılan rəsmi məlumatlara istinad etməyi tövsiyə edib.

Diqqətə çatdırıb ki, lokal xarakterli antiterror tədbirlərinin davam etdiyi günlərdə bəzi sosial media hesablarında Silahlı Qüvvələrimizə yardım adı altında əhaliyə çağırışlar edilir. Vətəndaşlardan müxtəlif yardım kampaniyalarına qoşulmaqla pul və ərzaq istənilir. Müdafiə Nazirliyi rəsmi olaraq vətəndaşları belə çağırışlara reaksiya verməməyi tövsiyə edib.

Məlumat verilib ki, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin ərzaq və digər təminatın daha da yaxşılaşdırılması üçün bütün zəruri işlər görülüb, bölmələrimizin istənilən şəraitdə normalara uyğun və fasiləsiz təminatı istiqamətində zəruri tədbirlər planlı şəkildə həyata keçirilir.

Sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlaması iştirakçılara çatdırılıb. Bildirilib ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Brifinqin sonunda qeyd olunub ki, Müdafiə Nazirliyinin rəhbərliyi bununla bağlı qoşunlara müvafiq göstərişlər verib.

# Azərbaycan suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir

## Milli Məclisin Sədri Sahibə Qafarova, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Azərbaycanın antiterror tədbirləri barədə beynəlxalq ictimaiyyətə müraciət ediblər

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müraciətdə qeyd olunur ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşması, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh müqaviləsinin imzalanması prosesinə sadiqdir.**



Ölkəmiz, həmçinin Qarabağ regionundakı etnik ermənilərin Azərbaycan vətəndaşları kimi reinteqrasiyası, ölkə Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində bütün hüquq və azadlıqlarının təmin olunması üzrə səylər göstərir. Azərbaycan 2020-ci ilin noyabrından etibarən bu prosesə sadiqliyini dəfələrlə nümayiş etdirib. Son olaraq, Qarabağ regionundakı erməni sakinlərə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni anda istifadə etməklə Beynəlxalq Qızıl Xaç Komitəsinin yük avtomobilləri ilə malların çatdırılması Azərbaycanın gərginliyin azaldılmasına olan sadiqliyinin göstəricisidir.

Sənəddə təəssüflə qeyd olunur ki, Azərbaycanın sözügedən səylərinə baxmayaraq, Ermənistan bütün vasitələrdən istifadə edərək, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü hədəf almaq, ərazilərimizdə separatizmin mövcudluğunu qoruyub saxlamaq cəhdlərini davam etdirib: delimitasiya olunmamış sərhəddə və Qarabağ regionunda hərbi təxribatlar, Azərbaycan ərazilərində qeyri-qanuni yerləşdirilmiş 10 min hərbi qüvvəyə maliyyə, hərbi, texniki yardımlar, ərazilərimizin minalanması, Azərbaycanın və xarici ölkələrin mülki təyyarələrinə qarşı radio-elektron müdaxilə halları, "blokada", "humanitar böhran" kimi əsassız iddialar və siyasi şantaj, qeyri-qanuni rejimə təbrik mesajları, qondarma separatçı rejimin "prezident seçkiləri" Ermənistan tərəfindən normallaşma prosesini pozmağa yönəlmiş təxribatçı addımlardan bəziləridir.

Müraciətdə qeyd olunur ki, Azərbaycan dəfələrlə bəyan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin öz mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir.

Bu çərçivədə, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatları və terror hücumları nəticəsində mülki şəxslər və hərbi qulluqçular həlak olub və yaralanıblar.

"Bütün bunlara cavab olaraq, Azərbaycan tərəfi antiterror tədbirlərinə başlayıb. Bu tədbirlər yalnız Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək, ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhalinin təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədinə xidmət edir. Azərbaycanın müvafiq qurumları tərəfindən xüsusilə vurğulanmışdır ki, görülən tədbirlərin hədəfi yalnız qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturdur. Mülki əhali heç bir halda hədəf təşkil etmir", - deyə müraciətdə vurğulanır.

Müraciət müəllifləri qeyd edirlər ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü hər bir ölkənin suverenliyi və ərazi bütövlüyü qədər vacibdir və Azərbaycan beynəlxalq hüquqda əks olunmuş bütün vasitələrlə öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir.

Müraciətin sonunda bir daha beynəlxalq ictimaiyyətə Azərbaycanın antiterror tədbirlərini dəstəkləməyə, regionumuzda uzunmüddətli sülh və sabitliyin təmin olunması naminə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı təxribatlardan çəkinməsi, normallaşma prosesi çərçivəsində məsuliyyətli davranması üçün Ermənistana təzyiq göstərməyə çağırış edilir.

*"Azərbaycan"*

# Lokal xarakterli antiterror tədbirlərinin yeganə hədəfi hərbi obyektlər idi

Ermənistanın son dövrlər artan təxribatı, törətdiyi terrorlar və 2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə riayət etməməsi lokal xarakterli antiterror tədbirlərini qaçılmaz etdi.



Qondarma rejimin törətdiyi özbaşınalıq, erməni diversantlarının terrorçuluq fəaliyyəti nəticəsində 2020-ci ilin noyabr ayından bu günə qədər 314 nəfər vətəndaşımız təkcə minaların qurbanı olub.

Təəssüf ki, Ermənistan rəhbərliyi üzərinə götürdüyü öhdəlikləri icra etmək əvəzinə təxribatlara, sabotajlara davam edir, sülh müqaviləsini imzalamaqdan imtina edir. Silahlı Qüvvələrimiz düşmənin təxribatının qarşısını almaqla antiterror tədbirlərinə başladı. Ordumuz hərzamankı kimi məsuliyyətli davrandı, yalnız hərbi obyektlərə yüksək dəqiqliklə zərbələr endirdi. Hətta təxribatçıya zərbə endirməmişdən qabaq bu barədə mülki əhalini məlumatlandırdı. Mülki əhaliyə ərazini tərk etməyi tövsiyə etdi, həyata keçirəcəyi tədbirlər zamanı yalnız hərbi obyektlərə ziyan vuracağı barədə öhdəlik götürdüyünü qeyd etdi.

Həyata keçirilən antiterror tədbirləri zamanı Ermənistana məxsus olan döyüş vasitələri yüksək peşəkarlıqla sıradan çıxarıldı, ordumuzun arsenalında olan müasir silahlarla düşmənin silah-sursatı, hərbi texnikası məhv edildi. Separatçılar mülki erməni əhalisindən istifadə edərək, onları hərbi təyinatlı obyektlərə gətirir və ya silahları yaşayış məntəqələrində yerləşdirirdilər. Lakin hərbi qulluqçularımız yüksək peşəkarlıqla davranaraq mülki vətəndaşların olduğu yerləri hədəf almadılar.

Ölkəmiz dəfələrlə sülh müqaviləsinin imzalanması barədə müraciət etsə də, Ermənistan heç zaman sülhü qəbul etmədi. Müxtəlif bəhanələrlə prosesi yubatmağa çalışır, havadarlarının şirin vədlərinə inanıb hər addımda sülhdən yayınırdı. Ermənistan münasibətləri düzəltmək və sülh şəraitində yaşamaq əvəzinə, havadarlarına arxayın olub hər addımda qarayaxma kampaniyasına cəhd edir və bununla da sonuncu törətdiyi terror hadisələri ilə sülhün mümkünsüzlüyünü nümayiş etdirdi.

Xankəndidə olan erməniəsilli Azərbaycan vətəndaşları üçün ölkəmizin qapısı açıq olub. Onlar dəfələrlə reinteqrasiya məsələlərini müzakirə etmək məqsədilə dialoqa dəvət olunublar və bu barədə müzakirələrin aparılmasının vacibliyi qeyd edilib. Lakin onlar hər dəfə bu prosesdən yayınıb, əksinə, hər addımda siyasi "şou" yaratmağa cəhd ediblər. Qeyd olunur ki, lokal xarakterli antiterror əməliyyatlarından sonra Xankəndidə yaşayan ermənilər reinteqrasiya məqsədilə Yevlax şəhərində görüşməyə hazırdırlar. İllərdir bu proses onlara təklif olunsa da, birgəyaşayışı qəbul etmədilər, silahlarını təhvil verib, təxribatçı fəaliyyətlərini dayandırmadılar.

Xocavənd rayonunda baş verən terror hadisələri onu deməyə əsas verir ki, Ermənistan çirkin niyyətindən, revanşist hisslərindən əl çəkmir. Təhlükəsizliyimizə, konstitusion quruluşumuza qarşı təhdid olaraq qalır və onların növbəti dəfə təxribat törədəcəklərini heç kəs istisna etmir. Bir daha belə hallar baş verməsin deyə, Silahlı Qüvvələrimiz tarixi missiya həyata keçirdi. Xalqımız hərzamankı kimi Prezident İlham Əliyevin yanındadır, ordumuza dayaqdır, dəstəkdir.

Söhbət ölkəmizin təhlükəsizliyindən gedirsə, bizə yalnız birlik lazımdır. Qərbi Azərbaycan İcmasının açıqlamasında da Ermənistanın sabotajı, terrorçuluq fəaliyyəti və sülhün qarşısında əngəl olması qəti şəkildə pislənib. Eləcə də, ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar Prezident İlham Əliyevin ətrafında birlik nümayiş etdirir, haqq işimizə dəstək olurlar. Onlar düşmənin təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirilən antiterror tədbirlərində dövlətin yanında olmaları barədə birgə bəyanat imzalayıblar. Partiya mənsubiyyətindən asılı olmayaraq, hər kəs Prezidentimizin ətrafında sıx birləşir, bu birliyin vahid amalı var: ölkəmizin təhlükəsizliyi təmin olunsun, terrorçuluğun və bütün növdən olan təxribatların qarşısı alınsın.

İmzalanmış bəyanatda Xalq Cəbhəsi, Müsavat və Real partiyalarının adları yoxdur. Görünən odur ki, birliyin-bərabərliyin vacib olduğu bu günlərdə belə bu partiyalar hələ də xain xislətlərindən əl çəkmirlər. Dövlət başçısının rəhbərliyi ilə aparılan haqq işinə dəstək vermək əvəzinə, pozuculuq fəaliyyətinə cəhd edirlər. Önəmli olan nə onların imzasıdır, nə də ki mövqeyi, lakin qədirbilən Azərbaycan xalqı belə həssas məqamda etdiklərinə görə onları bağışlamayacaq. 1991-1993-cü illərdə hakimiyyət böhranı yaradanlar, siyasi ambisiyalarına dövləti qurban verənlər bu gün də qazanılmış qələbəni, ölkəmizin inkişafını, qüdrətini hələ də həzm etmir və onların qısqanclıq niyyətlərinin əyani şahidi oluruq.

Ermənistanın sıradan çıxarılan silahları, məhv edilən qurğuları ilə bərabər, mülki şəxslərə hərbi əməliyyatlar yerinin tərk edilməsi, silahlılara yardım edilməməsi barədə Müdafiə Nazirliyimizin yaydığı məlumatlar da müsbət nəticəsini verdi. Məğlubiyyəti hiss edən separatçılar ən qısa zamanda xunta rejimini ləğv edərək, silahlarını təhvil verməyə və təslim olmağa məcburdurlar.

***Adil ƏLİYEV,***
***Milli Məclisin Sədr müavini***

# Çin ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

Yeni Azərbaycan Partiyası (YAP) nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində Çindao Şəhər Komitəsinin Daimi üzvü, şəhər komitəsinin Təşkilat Departamentinin rəisi Yuy Yuy ilə görüş keçirilib.

Görüşdə Çindao şəhəri və onun sosial-iqtisadi inkişafı barədə məlumat verilib, şəhərin tranzit, nəqliyyat-logistika və turizm imkanları diqqətə çatdırılıb. Eyni zamanda partiya quruculuğu, partiya üzvlərinin fəaliyyəti və gənc kadrların yetişdirilməsi məsələlərindən ətraflı bəhs olunub.

Çin ilə Azərbaycanın ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı haqqında fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, qarşılıqlı səfərlər münasibətlərin inkişafına təkan verir. Fəal siyasi dialoq şəraitində iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsinin önəmi diqqətə çatdırılıb, əməkdaşlığın perspektivləri müzakirə edilib, qarşılıqlı olaraq hədiyyələr təqdim olunub.

Sonra nümayəndə heyəti tərəfindən Çindao şəhərinin Çyanşan mikrorayonunun Şinan rayonunda Çin Kommunist Partiyasının üzvlərinə və əhaliyə xidmət mərkəzi ziyarət edilib, eyniadlı ərazi partiya təşkilatının fəaliyyəti ilə tanış olunub. Bildirilib ki, mərkəz partiya üzvlərinin və rayon əhalisinin sosial məsələlərinin həllinə dəstək olur, yaşlı insanların asudə vaxtının səmərəliliyini təmin etmək üçün müvafiq işlər görür, onlara sosial xidmətlər göstərir.



Nümayəndə heyətinin üzvləri "Hisense" dövlət şirkətini də ziyarət edib, onun istehsal və ixrac potensialı ilə tanış olublar.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çindao limanına səfəri də təşkil edilib. Bildirilib ki, Şandun yarımadasınının cənub-şərqində yerləşən Çindao şəhəri bölgənin sənaye mərkəzidir və burada tekstil, yeyinti, maşınqayırma, texniki və elektroenergetika sahələri yüksək inkişaf edib. Diqqətə çatdırılıb ki, Çindao limanının tərkibinə 5 liman ərazisi daxildir. Bu liman qrupları Mərkəzi Asiya və Avropaya yük nəqlində əhəmiyyətli paya sahibdir.

Çin - Şanxay Əməkdaşlıq Təşkilatı regional ticarət-iqtisadi əməkdaşlıq pilot zonasını ziyarət edən YAP nümayəndə heyəti burada yerləşən Azərbaycan pavilyonunda olub. Pilot zona barədə nümayəndə heyətinə ətraflı məlumat verilib.

Bununla yanaşı, partiyanın nümayəndə heyəti Yelkənli İdman növü üzrə Çindao Olimpiya Mərkəzinə baxış keçirib.

Sentyabrın 19-da YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb.

# Rusiya sülhməramlı kontingentinə məxsus avtomobil atəşə tutulub, ölənlər var

Sentyabrın 20-si Canyataq yaşayış məntəqəsi yaxınlığında Rusiya Federasiyasının sülhməramlı kontingentinə məxsus UAZ Patriot avtomobilinin atəşə tutulması nəticəsində sülhməramlı kontingentin hərbi qulluqçularının faciəvi şəkildə həlak olması faktı qeydə alınıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hadisənin başvermə səbəblərini araşdırmaq üçün Azərbaycan və Rusiyanın istintaq orqanları yerində əməkdaşlıq şəraitində çalışırlar.

"Baş vermiş hadisədən təəssüf hissi keçirir, Rusiyanın Müdafiə Nazirliyinin rəhbərliyi, Rusiya sülhməramlı kontingentinin komandanlığı və həlak olmuş hərbi qulluqçuların ailələri və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyirik", - məlumatda qeyd edilib.

# Qərbi Azərbaycan İcması bəyanatlarla çıxış edib

Biz Qərbi Azərbaycan İcması olaraq Avropa Şurasının bəzi rəsmilərinin Azərbaycanın Qarabağ regionunda həyata keçirdiyi antiterror tədbirləri ilə əlaqədar verdikləri qərəzli bəyanatları qınayırıq.

Bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

Qeyd edilib ki, terror təhdidlərini dəf etmək və Konstitusiya quruluşunu bərqərar etmək üçün öz ərazisi daxilində tədbirlər həyata keçirmək Azərbaycanın suveren hüququdur.

"Ermənistandan azərbaycanlıların qovulmasına, Ermənistanın Azərbaycan ərazilərini işğal edib oranı viran qoymasına, bir milyona yaxın azərbaycanlını oradan didərgin salmasına göz yuman, Azərbaycanın təkidli müraciətlərinə cavab olaraq, Avropa Şurasının bu məsələ ilə məşğul olmadığını bildirənlər indi nədənsə Azərbaycanın qanuni tədbirləri ilə bağlı narahat olmağa başlayıblar.

Biz Avropa Şurasını Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməyə və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmasına dəstək verməyə çağırırıq", - deyə açıqlamada vurğulanıb.

❖ ❖ ❖

Biz Qərbi Azərbaycan İcması olaraq Amerika Birləşmiş Ştatlarının rəsmilərinin Azərbaycanın Qarabağ regionunda həyata keçirdiyi antiterror tədbirləri ilə əlaqədar verdikləri qərəzli bəyanatlardan narahatlığımızı bildiririk.

Bu sözlər icmanın məsələ ilə bağlı bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: "Terror təhdidlərini dəf etmək və Konstitusiya quruluşunu bərqərar etmək üçün öz ərazisi daxilində tədbirlər həyata keçirmək Azərbaycanın suveren hüququdur. ABŞ tərəfinin son bəyanatları onun terrorçuluğa qarşı beynəlxalq mübarizədə nümayiş etdirdiyi mövqeyi və bu məsələ üzrə Azərbaycan Respublikası ilə onilliklər boyunca apardığı tərəfdaşlığa uyğun gəlmir".

Diqqətə çatdırılıb ki, ABŞ hökumətinin Ermənistandan azərbaycanlıların qovulmasına, Ermənistanın Azərbaycan ərazilərini işğal edib oranı viran qoymasına, bir milyona yaxın azərbaycanlını oradan didərgin salmasına adekvat münasibət bildirməməsi fonunda, Azərbaycanın antiterror tədbirləri ilə bağlı qərəzli mövqe nümayiş etdirməsi təəssüf doğurur. Bundan başqa, Ermənistan Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qəsd etdiyi halda, ABŞ tərəfi nədənsə ancaq Ermənistanın ərazi bütövlüyünə dəstək ifadə edir.

"Biz ABŞ hökumətini Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməyə, insan hüquqları məsələsində ayrı-seçkiliyə yol verməməyə və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmasına dəstək verməyə çağırırıq", - deyə bəyanatda vurğulanıb.

❖ ❖ ❖

Qərbi Azərbaycan İcması Argentina Prezidenti Alberto Fernandesin BMT Baş Assambleyasında anti-Azərbaycan açıqlamasını qətiyyətlə rədd edir.

Qərbi Azərbaycan İcması bu barədə bəyanat yayıb.

Bəyanatda Argentina Prezidentinin ölkəsinin ağır sosial-iqtisadi məsələlərini, yoxsulluq, korrupsiya kimi problemlərini həll etmək əvəzinə özünə aid olmayan məsələlərə, həm də diletant münasibət bildirdiyi qeyd olunur.

"Hiss olunur ki, onun beynəlxalq münasibətlər, beynəlxalq hüquq, coğrafiya barədə bilikləri çox səthidir. "Azərbaycanı Dağlıq Qarabağı nəzarətə götürmək"də ittiham etmək Argentinanı Mendoza əyalətini nəzarətə götürməkdə ittiham etmək kimi bir şeydir.

Azərbaycanı "etnik, dini, irqi təqibdə"də ittiham edən Alberto Fernandesə Argentinada XIX əsrdə köklü tayfaların məhv edildiyini xatırladır və diqqəti bu məsələlərə yönəltməyə çağırırıq", - deyə bəyanatda bildirilir.

❖ ❖ ❖

Qərbi Azərbaycan İcması Estoniya Xarici İşlər Nazirliyinin bəyanatına cavab verib.

İcmadan daxil olan məlumatda deyilir: "Qərbi Azərbaycan İcması Estoniya Xarici İşlər Nazirliyinin bəyanatı ilə əlaqədar bildirir ki, Estoniyanın Azərbaycanın daxili işlərinə müdaxilə etmək üçün heç bir mənəvi hüququ yoxdur. Estoniya öz ərazisində sıxışdırdığı etnik azlığın hüquqlarını qorumalı, onları qanunsuz olaraq vətəndaşlıqdan məhrum etməməli və inteqrasiya məqsədilə həmin icma ilə dialoq aparmalıdır".

❖ ❖ ❖

Qərbi Azərbaycan İcması Ermənistanın İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Paktın icrasına dair Dördüncü Dövri Hesabatı ilə əlaqədar BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinə geniş Paralel Hesabat təqdim edib.

Bu barədə Qərbi Azərbaycan İcmasının sözçüsü Ülviyyə Zülfiqar məlumat verib.

Sözçü bildirib ki, Komitənin 74-cü sessiyasında (25 sentyabr 2023-cü il-13 oktyabr 2023-cü il) baxılmaq üçün təqdim olunmuş hesabatda Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparmasından və geri qayıtmaq hüququ da daxil olmaqla onların Pakt ilə qorunan hüquqlarının sistematik şəkildə pozulması halları barədə məlumat verilir. Hesabat Ermənistanın sözügedən Paktı və digər beynəlxalq insan hüquqları konvensiyalarını pozduğunu vurğulayır və komitəni insan hüquqlarının pozuntularını aradan qaldırmaq üçün təcili tədbirlər görməyə çağırır.

Ülviyyə Zülfiqar qeyd edib ki, Qərbi Azərbaycan İcması hesabatda Ermənistan hökumətindən qovulmuş azərbaycanlıların Ermənistana təhlükəsiz və ləyaqətlə qayıtmasını, onların reinteqrasiyasını, qayıtdıqdan sonra onların orada hüquq və təhlükəsizliyini təmin etməyi, Azərbaycan mədəni irsinə vurduğu zərərin beynəlxalq qurumlar tərəfindən qiymətləndirilməsinə imkan yaratmağı və onu bərpa etməyi, azərbaycanlılara məxsus əmlakı geri qaytarmağı və Paktdan irəli gələn digər öhdəliklərinə əməl etməyi tələb edir. Sözçü vurğulayıb ki, Qərbi Azərbaycan İcması Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququnun bərpa edilməsi istiqamətində beynəlxalq konvensiyalar çərçivəsində səylərini davam etdirəcək.

***AZƏRTAC***

# “Dəmir yumruğ”un ağıllandırma tədbirləri



*Erməni diversiya qruplarının törətdiyi mina terroru nəticəsində polislərin və mülki şəxslərin həlak olması Azərbaycanın səbir kasasını daşdırdı!*

*"Dəmir yumruq" yenidən işə düşdü:*

*Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı birləşmələrinin təxribatlarına kəskin və qətiyyətli, birdəfəlik cavab vermək üçün!*

HƏM DƏ:

- Məğlublar sülhə gəlmədiklərinə, imzaladıqları bəyanatlara, verdikləri vədə əməl etmədiklərinə görə!
- Separatizm əməllərindən əl çəkmədiklərinə, sərsəm "miatsum" "ideyası"nı beyinlərindən çıxarmadıqlarına görə!
- Azərbaycan cəmiyyətinə reinteqrasiyadan qəsdən boyun qaçırdıqlarına, Qarabağdakı separatçı rejimin erməniləri murdar niyyətlərinin girovuna çevirdiyinə görə!

**Ən nəhayət, yenidən havadarlarına, müxtəlifsəviyyəli müdafiəçilərinə güvənməklə Azərbaycana, onun Konstitusiyasına meydan oxuduqlarına görə!**

Bu dəfə də ağlını itirənləri ağıllandırmaq üçün hədəfə yönələn dəqiq zərbələr, göydən od yağdıran PUA-lar işə salındı.

Söz xəbərdarlıqları əməli tədbirlərə çevrildi!

❖ ❖ ❖

Lokal xarakterli antiterror tədbirləri başlayan kimi "köhnə ssenarilər" də işə salındı!

Qanuni hüquqlarından istifadə edərək ölkə daxilindəki separatizmə son qoymaq niyyətini gerçəkləşdirən Azərbaycana informasiya müharibəsi açılaraq diplomatik oyunlara başlanıldı!

Özünə və beynəlxalq hüquqa güvənən Azərbaycan isə hər kəsin cavabını kəskin və qətiyyətlə verdi!

Azərbaycanın Xarici İşlər Nazirliyi Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatını rədd edərək pislədiyini bildirdi:

*"Fransa rəsmiləri, Milli Assambleyası və Senatı Azərbaycana qarşı bəyanatlar verilməsi və sənədlərin qəbulunda Ermənistandan daha fəal çıxış edirlər.*

*Fransanın islamofob və anti-Azərbaycan siyasəti, onun daxili işlərimizə qəbuledilməz müdaxiləsi göstərir ki, Fransa regiondan nə qədər uzaq olsa, region üçün bir o qədər yaxşı olar".*

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, ermənipərəst Cozef Borrel də təhriflərlə dolu bəyanatının cavabını aldı:

*"Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqazidd olan hər hansı hərbi mövcudluq regional sülhə və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın bugünkü addımları bu qanunsuz qüvvələrin çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib. Azərbaycan dinc erməni sakinlərə hücum etmir və bu barədə istənilən iddia əsassız və qəbuledilməzdir".*

**Artıq bütün dünya və dünya liderləri də bilirlər ki, Azərbaycan qarşısına hədəf qoyduğu və açıq şəkildə bəyan etdiyi məqsədinə çatmayanadək dayanmayacaqdır!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev sözünün və imzasının sahibidir!**

**Başqalarından da bunu gözləyir və tələb edir!**

Paşinyanın günlərlə davam edən yalvar-yaxarı, onun-bunun dabanını yalaması və son nəticədə 44 günlük müharibədə hərbi əməliyyatların dayanması Rusiya Prezidenti V.Putinin zəmanəti ilə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması sayəsində gerçəkləşdi!

Quyruğu qapı arasından çıxan Paşinyan çox keçmədən nala-mıxa vurmağa, öhdəliklərindən müxtəlif bəhanələrlə boyun qaçırmağa, hətta Rusiyaya dirsək göstərməyə başladı!

*2020-ci ilin noyabrından keçən təqribən 3 illik dövr ərzində:*

- Üçtərəfli Bəyanatın tələblərinə, xüsusən 4-cü və 9-cu bəndlərə əməl etmədi;
- Gic-gic şərtlər irəli sürməklə sülh müqaviləsini imzalamadı;
- İran və Hindistan vasitəsilə silahlanaraq revanşist çıxışlara və əməllərə yol verdi;
- Dəqiq mina xəritələrini Azərbaycana təqdim etmədi, 2021-ci il istehsalı olan minaları gizlin şəkildə ölkəmizə daşıyaraq mina terroruna başlatdı;
- Qarabağdakı separatçı rejimi, habelə qeyri-qanuni silahlı birləşmələri Ermənistan büdcəsi hesabına maliyyələşdirməkdə davam etdi;
- Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "ildönümü"nə təbrik məktubu göndərdi, separatçı rejimdə yenidən "prezident" seçkiləri keçirilməsini dəstəklədi;
- "Humanitar şou"lar təşkil edərək Azərbaycanın əleyhinə böhtan kampaniyasını başlatdı;
- Ağdam-Xankəndi yolunun işə düşməsinə, erməniəsilli Azərbaycan vətəndaşlarının reinteqrasiyasına maneçilik törətdi;
- Azərbaycan ərazisinin sistemli şəkildə atəşə tutulmasına, hərbi eskalasiyanın artmasına təkan verdi;
- Yeni səngərlər və mühəndis qurğuları yaradaraq hərbi əməliyyatlara hazırlığa başlatdı;
- Qarabağda bərpa və quruculuq işləri aparanlara real təhdid və təhlükələr yaratdı;
- **Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədi!**

**Ermənistan tərəfindən tam dəstək alan Qarabağdakı separatçı rejim yenidən "miatsum" hərəkatına başlayaraq Azərbaycana meydan oxumaq yolunu tutdu!**

*Bütün bu hərəkət və əməllərlə, əslində, Azərbaycana yenidən "dəmir yumruğ"unu işə salmaqdan özgə yol qoymadı!*

❖ ❖ ❖

Sülh danışıqları müxtəlif formatlarda baş tutdu və Azərbaycan sülhlə bağlı heç bir təşəbbüsü diqqətdən kənarda saxlamadı.

**Qalib ölkə olsaq da, sülh təşəbbüsü ilə biz çıxış etdik və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan beş şərtimizi irəli sürdük.**

Ermənistan əvvəlcə danışıqları uzatdı, sonra biabırçı məğlubiyyətə uğramış tərəf olduğunu "unudaraq" nəinki bəyanatlardakı razılaşmaları yerinə yetirmədi, əksinə, özü müxtəlif "şərtlər" irəli sürməyə başladı!

Lokal xarakterli antiterror tədbirlərinə start verən Azərbaycan isə həmişəki kimi məqsəd və hədəflərini açıq-aşkar söylədi.

Azərbaycan Xarici İşlər Nazirliyinin 19 sentyabr tarixli bəyanatında deyilir:

*"Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb".*

Müdafiə Nazirliyinin açıqlamasında antiterror tədbirlərinin icra prinsipləri əksini tapıb:

*"Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusuya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb".*

"Dəmir yumruğ"un hədəfləri də aşkar şəkildə göstərilib:

*"Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksəkdəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır".*

**Eyni zamanda mülki əhaliyə ziyan dəyməməsi üçün qabaqlayıcı tədbirlər də görülüb, bununla bağlı onlara SMS xidməti vasitəsilə xüsusi müraciət ünvanlanmış, məlumat vərəqələri paylanmışdır:**

*"Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq, ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq".*

**Təkcə xəbərdarlıqlarla kifayətlənməyərək qadınlar, qocalar, uşaqlar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə tibbi yardım təşkil olunmuş, onlar içməli su və ərzaqla təmin edilmişlər.**

**Əhalinin təhlükəli ərazilərdən təxliyəsi üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri də yaradıldı.**

Tədbirlərin gedişi barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı, habelə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin rəhbərliyi müntəzəm surətdə məlumatlandırıldı.

❖ ❖ ❖

**Səbrin və dözümün də həddi olur!**

**Azərbaycan kifayət qədər gözlədi, səbir etdi!**

Lokal antiterror tədbirlərinin başa çatmasının şərtləri isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən açıqlandı:

- Qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı!
- Bütün silahlar təhvil verilməli!
- Qanunsuz separatçı rejim özünü buraxmalıdır!

Bu yolda sarsılmaz milli birlik nümayiş etdirən Azərbaycan xalqı və cəmiyyəti Müzəffər Ali Baş Komandanın arxasında möhkəm dayandı, 44 günlük möhtəşəm sınaqdan zəfərlə çıxan ordumuz isə qarşısına qoyulan vəzifəni sonadək, uğurla yerinə yetirdi!

❖ ❖ ❖

44 günlük Vətən müharibəsində olduğu kimi, Azərbaycan Ordusu lokal antiterror tədbirlərini də ən qısa müddətdə başa çatdırdı.

Qeyri-qanuni erməni terrorçu birləşmələrinin təslim olması barədə razılıq əldə olundu!

Şərtləri də yenə Azərbaycan tərəfi diktə etdi:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Beləliklə, "dəmir yumruğ"un ağıllandırma tədbirləri uğurla, qələbə ilə başa çatdı!

**Bəxtiyar SADIQOV**












# Lokal xarakterli antiterror tədbirlərinə dəstək ifadə olunub

Sentyabrın 20-də Regional məsələlər komitəsinin Milli Məclisin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Siyavuş Novruzov Azərbaycanın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərində erməni terrorçulara qarşı həyata keçirilən lokal antiterror tədbirlərindən söz açıb. Komitə sədrinin təklifi ilə iclas iştirakçıları torpaqlarımızın bütövlüyü uğrunda həlak olan şəhidlərin xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Sonra komitə sədri Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə aparılan lokal antiterror tədbirlərini zəruri edən səbəblərdən danışıb, bu tədbirlərin beynəlxalq hüquqa, Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna və üçtərəfli Bəyanatın müddəalarına uyğunluğunu vurğulayıb.

Azərbaycan ictimaiyyətinin, eyni zamanda Milli Məclisin deputatlarının bu antiterror tədbirlərini dəstəklədiyini deyən komitə sədri qeyd edib ki, Milli Məclis tərəfindən Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri barədə beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlanıb. Eyni zamanda Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə siyasi partiyalar dəstək bəyanatı qəbul ediblər. Komitə sədri ümummilli mənafelərdə bir yumruq kimi birləşməyimizin vacibliyini vurğulayıb, Azərbaycanın taleyüklü məsələlərində yaxanı kənara çəkməyi xəyanət kimi qiymətləndirib.

Sonra komitə sədri gündəliyə 2 məsələnin daxil edildiyini deyib. O, əvvəlcə Milli Məclisin 2023-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində Regional məsələlər komitəsində görülən işlər barədə məlumat verib. Bildirilib ki, ötən sessiyalarda komitənin 9 iclası keçirilib, iclaslarda 53 məsələyə baxılıb. Diqqətə çatdırılıb ki, hesabat dövründə komitəyə vətəndaşlardan daxil olan müraciətlə bağlı müvafiq tədbirlər görülüb, komitə üzvləri mütəmadi olaraq seçicilərlə, cəmiyyətin həssas qrupları, o cümlədən şəhid ailələri, qazilər, müharibə iştirakçıları və aztəminatlı ailələrlə görüşüblər, onların qayğıları ilə maraqlanıblar.

Sonra Regional məsələlər komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planının layihəsi təqdim edilib. Diqqətə çatdırılıb ki, növbəti sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, dinləmələrin keçirilməsi, komitəyə müvafiq orqanlardan və vətəndaşlardan daxil olan təkliflərin təhlili və ümumiləşdirilməsi nəzərdə tutulub.

Müzakirələr zamanı komitənin sədr müavini Elşən Musayev, komitə üzvləri Məzahir Əfəndiyev, Cavid Osmanov, Tahir Rzayev, Kamran Bayramov və Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid çıxış edərək gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıblar. Deputatlar həmçinin üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması, işğaldan azad edilmiş ərazilərə qayıdan əhalinin və digər vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycanın müzəffər ordusunun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatlarına dəstəklərini ifadə ediblər.

Millət vəkilləri Milli Məclisin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Regional məsələlər komitəsində görülən işləri qənaətbəxş hesab ediblər, komitənin 2023-cü ilin payız sessiyası üçün iş planının layihəsini təsdiqləyiblər.

İclasın sonunda Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə deputatların işinin səmərəliliyini artırmaq üçün hazırlanmış mobil tətbiq layihəsinin parlament Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsinin müdiri Şahin Həsənov tərəfindən təqdimatı keçirilib.

***"Azərbaycan"***

# İranlı deputatlar Qarabağın Azərbaycan torpağı olduğunu bildiriblər

Sentyabrın 20-də Milli Məclisin İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupu üzvlərinin İran İslam Respublikası İslam Şurası Məclisinin üzvləri ilə görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Cavanşir Paşazadə İran nümayəndə heyətini salamlayaraq ölkələrimiz arasında əlaqələrin inkişafından söhbət açıb. O, bu günlərdə Azərbaycanın Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş təxribatlara cavab olaraq, həyata keçirilən antiterror tədbirləri barədə danışıb, bu tədbirlər nəticəsində şəhid olanlara rəhmət diləyib.

Deputat ölkəmizin regionda sülhə, əmin-amanlığa önəm verdiyini, dövlətlər arasında dostluq münasibətlərinin inkişafında maraqlı olduğunu söyləyib. O, İranla müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticari, logistika sahələrində əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışıb, xalqlarımızın eyni tarixə, dinə, mədəniyyətə malik olduqlarını deyib.

Ölkələrimizin parlamentləri arasındakı münasibətlərə toxunan Cavanşir Paşazadə bu əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və parlament dostluq qruplarının əhəmiyyətindən danışıb.



İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərov Azərbaycanla İran arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu qeyd edib. O, uzun illər ərzində azərbaycanlıların Ermənistandan deportasiya edildiyini, orada azərbaycanlılara aid tarixi, mədəni abidələrin məhv edildiyini diqqətə çatdırıb. Deputat rəhbərlik etdiyi icma tərəfindən bununla bağlı mötəbər beynəlxalq təşkilatlara müraciətlər ünvanlandığını, hazırda Qərbi Azərbaycana Qayıdış Konsepsiyası əsasında Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına təhlükəsiz şəkildə qayıtmasını təmin etmək istiqamətində addımların atıldığını bildirib.

İran parlamentinin üzvləri Zahedi Mohəmməd Mehdi, xanım Paşayi Bəhram Məsumə, Əlizadə Əli səmimi görüşə görə təşəkkürlərini ifadə ediblər, Azərbaycan və İranın ortaq tarixi və mədəni dəyərlərə malik olduğunu söyləyiblər. Qonaqlar İranın Azərbaycanla müxtəlif sahələrdə daha sıx əməkdaşlığın inkişafında maraqlı olduğunu, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün geniş potensial imkanların mövcudluğunu qeyd ediblər.

İranlı deputatlar ölkələrinin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini bildirərək, Qarabağın Azərbaycan torpağı olduğunu vurğulayıblar, öz ürək sözlərini söyləyiblər.

Söhbət zamanı dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi, parlamentlər arasında əlaqələrin inkişafı, bir sıra digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə İran Xarici İşlər Nazirliyinin nümayəndəsi Həsəni Rıza, İranın Azərbaycandakı səfirliyinin təmsilçisi Ağayi Müsəvi Məliki və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib

Sentyabrın 20-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Hicran Hüseynova ordumuzun Qarabağ iqtisadi rayonunda dünəndən başladığı antiterror tədbirlərinin bu gün separatçıların təslim olması ilə nəticələnməsi münasibətilə təbriklərini çatdırıb. Komitə sədrinin təklifi ilə dünən erməni terrorçularının törətdikləri növbəti terror aktı nəticəsində həlak olan polis əməkdaşlarının, mülki şəxslərin və antiterror tədbirləri zamanı şəhid olan əsgərlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra komitə sədri iclasın gündəliyinə 2 məsələnin - Milli Məclisin 2023-cü il yaz və növbədənkənar sessiyaları dövründə Ailə, qadın və uşaq məsələləri komitəsində görülən işlər barədə hesabatın və Ailə, qadın və uşaq məsələləri komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planının daxil edildiyini bildirib.

Hicran Hüseynova diqqətə çatdırıb ki, hesabat müddətində komitənin 11 iclası keçirilib, həmin iclaslarda 34 məsələyə baxılıb. Hesabat dövründə komitədə 9 qanun layihəsi üç oxunuşda, 4 qanun layihəsi isə bir oxunuşda müzakirə edilib.

Yaz və növbədənkənar sessiyalar ərzində komitə parlament rəhbərliyinin dəstəyi və Yeni Azərbaycan Partiyası ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və gender siyasəti: milli qanunvericilik əsas prioritetlər kontekstində" mövzusunda konfrans keçirib. Həmin konfransda əsası Ulu Öndər tərəfindən qoyulan dövlət qadın siyasəti, gender bərabərliyinin təmin edilməsi sahəsində qanunvericilik bazasının, həmçinin institusional mexanizmlərin yaradılması, daha sonra bu siyasətin cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla inkişaf etdirilməsi ilə bağlı çıxışlar edilib, bir sıra qeyd və təkliflər səsləndirilib.

Komitə sədri və üzvləri "Heydər Əliyev İli" çərçivəsində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş yerli və beynəlxalq səviyyələrdə keçirilən tədbirlərdə fəal iştirak ediblər.

2023-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olmuş 300-dən artıq ərizə və məktuba, digər müxtəlif xarakterli sənədlərə, elektron poçt vasitəsilə daxil olmuş məktublara baxılmış və tədbir görülməsi üçün aidiyyəti təşkilatlara göndərilmişdir. Ərizələrin əksəriyyəti ilə bağlı müvafiq icra strukturları və təşkilatlarla telefon əlaqəsi saxlanılmış və qanun çərçivəsində həllinə nail olunmuşdur.

Gündəliyin ikinci məsələsi olan Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planı ilə bağlı Hicran Hüseynova diqqətə çatdırıb ki, qarşıdakı sessiyada komitəyə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin müzakirəsi, o cümlədən müxtəlif qanun layihələrinə əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulub. Həmçinin "Ailə sağlamlığı və dəyərləri qanunvericilik aspektində" mövzusunda dinləmənin keçirilməsi də planlaşdırılıb.

Müzakirələrdə Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, komitə üzvləri Rəşad Mahmudov, Sədaqət Vəliyeva, Pərvin Kərimova, Tamam Cəfərova, Könül Nurullayeva, Sevil Mikayılova çıxış ediblər, gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər. Millət vəkilləri komitənin məhsuldar fəaliyyət göstərdiyini deyərək qarşıdakı sessiya üçün iş planı ilə bağlı təkliflərini səsləndiriblər, bəzi aktual məsələlərə dair qeydlərini diqqətə çatdırıblar.

Komitə üzvləri Milli Məclisin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Ailə, qadın və uşaq məsələləri komitəsində görülən işlər barədə hesabatı qənaətbəxş hesab ediblər, komitənin 2023-cü ilin payız sessiyası üçün iş planını təsdiqləyiblər.

***"Azərbaycan"***

# Prezident İlham Əliyev xalqımıza növbəti qələbəni yaşatdı

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə böyük qələbələrə imza atan yenilməz Azərbaycan Ordusu daha böyük bir missiyanı - ölkəmizin Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Bu, bir daha ordumuzun gücünü, qüdrətini göstərdi. Sübut etdi ki, Azərbaycanın əsgər və zabitləri istənilən tapşırığı qələbə ilə yekunlaşdırmağa qadirdir. Prezident İlham Əliyev xalqımıza növbəti qələbəni yaşatdı. Bu, Azərbaycan xalqının qələbəsidir. Xalqımız həmişəki kimi bir oldu, bütöv oldu, "dəmir yumruğ"a dönərək Prezidentin ətrafında birləşdi və göstərdi ki, güc birlikdədir".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, qısa müddətdə - cəmi bir sutkadan da az vaxtda qələbə qazanmağı, qarşı tərəfi təslim olmağa məcbur etməyi yalnız Azərbaycan Ordusu bacara bilərdi. Ordumuz bir daha peşəkarlığını və yüksək döyüş hazırlığını ortaya qoymuş oldu. Heç bir mülki şəxsə ziyan vurmadı, dinc sakinləri hədəf almadı, mülki obyektlərə atəş açmadı. Tapşırığı səliqəli və nümunəvi şəkildə həyata keçirərək yalnız legitim hərbi hədəfləri zərərsiz hala gətirdi. Mina terroru nəticəsində həlak olanların qisasını aldı.

"Azərbaycanı antiterror tədbirləri görməyə qarşı tərəf məcbur etdi. Onlar məğlub və fərari ordusunun qalıqlarını Azərbaycan ərazilərindən çıxarmadı, qanunsuz silahlı birləşmələr tərksilah edilmədi, mütəmadi olaraq ölkəmizin daxili işlərinə qarışdılar, müxtəlif silahlı təxribatlara əl atdılar, mina terrorunu davam etdirdilər, separatizmə hərtərəfli dəstək göstərdilər və sair. Bir sözlə, təkrar olaraq təcavüzkar niyyətlərinin arxasına düşərək münasibətlərin normallaşmasında maraqlı olmadılar. Təbii ki, Azərbaycanın səbri tükənməz deyil. Odur ki, ölkəmiz bu yolu seçərək separatçıları diz çökdürdü", - deyə Milli Məclisin deputatı bildirib.

"Bu arada mən bir məsələyə də toxunmaq istərdim. Bir sıra dövlətlər Silahlı Qüvvələrimizin Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirlərini tənqid edən bəyanatlar səsləndirdilər. Təbii ki, belə boş və mənasız bəyanatlar Azərbaycanı nə yolundan döndərər, nə də məqsədindən daşındırar. Dövlət başçısı İlham Əliyevin sözləri ilə desək, bizimlə heç kim təzyiq dili ilə danışa bilməz. Azərbaycan heç bir dövlətin daxili işinə qarışmır. Kənar dövlətlərin də bizim daxili məsələlərimizə qarışmağa haqqı yoxdur", - deyə AHİK sədri əlavə edib.

# Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus kvadrokopter ələ keçirilib

Sentyabrın 20-si saat 10:00 radələrində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimizin sayıqlığı nəticəsində kvadrokopter aşkar edilərək xüsusi texniki vasitələrlə endirilib.

# Müdafiə Nazirliyi təkzib edir

Ermənistan mətbuatında guya Azərbaycan Silahlı Qüvvələrinin Ağdərə yaşayış məntəqəsini atəşə tutması barədə yayılan məlumatların heç bir real əsası yoxdur, tamamilə yalandır.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

"Qarşı tərəfin yaydığı növbəti dezinformasiya xarakterli məlumatı qəti surətdə təkzib edirik", - deyə qeyd olunub.

❖ ❖ ❖

Ermənistanın bəzi sosial media hesablarında guya Silahlı Qüvvələrimiz tərəfindən yenidən Xankəndi şəhərinə atəş açılması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir və dezinformasiya məqsədi daşıyır.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib. "Yayılan bu məlumatı qəti surətdə təkzib edirik.

Bir daha bildiririk ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələri yalnız legitim hərbi obyektləri və hərbi infrastrukturu yüksək dəqiqliyə malik silahlarla hədəfə alır və sıradan çıxarır", - məlumatda qeyd edilib.

❖ ❖ ❖

Sentyabrın 20-si saat 22:50 radələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Zod istiqamətində yerləşən mövqelərinin atəşə tutulması barədə bu ölkənin müdafiə nazirliyinin yaydığı məlumat tamamilə yalandır.

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib. "Yayılan bu məlumatı qəti surətdə təkzib edirik", - deyə məlumatda qeyd edilib.

# LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ UĞURLA BAŞA ÇATDI

## Azərbaycan bütün şərtlərini qəbul etdirdi

Azərbaycan üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə keçirdiyi lokal xarakterli antiterror tədbirləri bir gün ərzində başa çatdı. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq ötən gün saat 13:00-da Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrinin, qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, Azərbaycan ərazilərini tərk etməsi, bununla yanaşı, bütün silah-sursat və ağır texnikanı təhvil verməsi və bütün proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin təmin olunması şərtləri altında antiterror tədbirlərinin dayandırılması ilə bağlı razılıq əldə edildi.





Həmçinin Azərbaycanın Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə görüş təklifi də qəbul olundu.

Beləliklə, bir gün ərzində Silahlı Qüvvələrimiz öz qüdrətini, rəşadətini bir daha göstərdi.

### Növbəti özünüifşa

Milli Məclisin deputatı Sahib Alıyev qeyd edib ki, Qarabağdakı hərbi xunta tələblərimizi yerinə yetirməyə hazır olduğunu bildirib. Azərbaycan nə itki vermək, nə də Qarabağda yaşayan mülki şəxslərə zərər dəyməsini istəyir: "Məhz ona görə də ən yüksək səviyyədə bildirilmişdi ki, oradakı terrorçu ünsürlər silahı yerə qoymağa hazır olduqları və rejimin buraxıldığı təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıracaq. Qətiyyən şübhəm yoxdur ki, tələblərimizi tam şəkildə və sürətlə yerinə yetirməyəcəkləri halda ermənilər daha rəzil vəziyyətə salınacaqlar".

Deputat vurğulayıb ki, hərbi xuntanın tələblərimizi yerinə yetirməyə hazır olduğunun bildirildiyi "rəsmi" açıqlamasında yazılıb ki, Ermənistan Respublikasının hissələri və hərbi qulluqçuları Qarabağın Rusiya sülhməramlılarının yerləşdiyi hissəsindən çıxarılması barədə razılıq əldə edilib. "Bəs, deyirdilər, Ermənistanın Qarabağda heç bir hərbçisi yoxdur? Oradakı hərbi xunta təsdiqləyir ki, var və "dəmir yumruq" növbəti dəfə başlarına dəyəndən sonra rədd olub getməyə hazırdılar".

### Görüşdə reinteqrasiya prosesləri ilə bağlı müzakirələr aparılacaq

Milli Məclisin deputatı Arzu Nağıyev qeyd edib ki, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, ərazilərimizdə terror əməliyyatlarını həyata keçirən, təxribatlar törədən dinc əhaliyə qarşı silahdan istifadə edən terrorçular məhz Qarabağda cəmləşən qanunsuz erməni hərbi birləşmələri idi. Azərbaycan Silahlı Qüvvələri tərəfindən həmin qüvvələrə qarşı antiterror tədbirləri həyata keçirildi və erməni silahlıları məğlub olaraq ağ bayraq qaldırdılar: "Yevlaxda görüş təyin olunub. Bu görüşdə Qarabağdakı erməni sakinlərin nümayəndələri ilə reinteqrasiya prosesləri ilə bağlı müzakirələr aparılacaq. Əsas məqam odur ki, Rusiya sülhməramlı qüvvələrinin də iştirakı ilə erməni silahlıları ərazidən çıxarılmalı, ağır texnika utilizasiya olunmalıdır. Bu proses davam etməlidir".

24 saat çəkən antiterror tədbirləri zamanı Azərbaycan Ordusunun gücünün bir daha şahidi olduğumuzu vurğulayan A.Nağıyev bildirib ki, Ermənistan silahlı qüvvələrinə məxsus 90-dan artıq döyüş və strateji əhəmiyyətli mövqeləri ordumuz tərəfindən nəzarətə götürülüb. Azərbaycan Ordusu bütün sərhəd bölgələrində istənilən aqressiyaya, təxribata cavab verməyə hazırdır. Artıq bu məsələyə son qoymağın vaxtı gəlib çatmışdı. Xankəndidə də konstitusion quruluşumuz tam bərpa ediləcək. Azərbaycan dövlətçilik istiqamətində bütün lazımi addımları atacaq.

Deputat həmçinin bildirib ki, könüllü olaraq Qarabağı tərk etmək istəyən Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinə Azərbaycan tərəfindən bunun üçün şərait yaradılıb. Onlar bizim texniki vasitələrimizin müşayiəti ilə əraziləri tərk edirlər.

### Ermənistanın sülh müqaviləsi imzalamaqdan başqa yolu yoxdur

Milli Məclisin deputatı Azər Badamov deyib ki, Azərbaycanın Müzəffər Ordusu yeni şərəf və qəhrəmanlıq tarixi yazdı. Qarabağ iqtisadi rayonunun erməni sakinləri yaşayan ərazilərdə "boz zona" olmayacaq: "Lokal antiterror tədbirləri ilə bir sutka ərzində Ermənistanın qeyri-qanuni silahlı birləşmələri və separatçıların bütün döyüş nöqtələri məhv edildi. Çıxılmaz vəziyyətə düşən xunta rejimi artıq Azərbaycanın bütün şərtlərini qəbul etdiklərini bildirərək ağ bayraq qaldırdı".

Deputatın fikrincə, Azərbaycan silaha əl atmaq istəmirdi. Bütün məsələlərin dialoq yolu ilə həll olunmasına çalışırdı, amma separatçılar qeyri-qanuni silahlı birləşmələrə güvənərək ölkəmizə "meydan oxumaq" istədilər. Təklif etdiyimiz dialoq və yardımları qəbul etmir və intensiv təxribatlar törədirdilər. Son mina təxribatı ilə separatçılar Azərbaycanı antiterror tədbirləri keçirməyə məcbur etdilər.

Bu antiterror tədbirləri zamanı Azərbaycan mülki insanları hədəf seçmədi. Yalnız legitim hərbi məntəqələr məhv edildi. Hətta Qarabağdakı mülki ermənilərə hərbçilərdən uzaq dayanması ilə bağlı çağırışlar olundu. Antiterror tədbirlərin həyata keçirildiyi bir sutka ərzində ərazilərimizdəki separatçıların bütün hərbi arsenalı məhv edildi. Çıxılmaz vəziyyətə düşən revanşistlər silahı yerə qoyaraq Yevlaxda dialoqa hazır olduqlarını bildirdilər və antiterror tədbirlərinin dayandırılmasını xahiş etdilər.

A.Badamov vurğulayıb ki, Azərbaycan həmişə olduğu kimi, bu dəfə də humanistlik nümayiş etdirdi və saat 13:00-dan başlayaraq müəyyən şərtlər əsasında antiterror tədbirlərinin dayandırıldığını bəyan etdi: "Yevlaxda keçiriləcək görüşdə erməni icmasının nümayəndələri ilə reinteqrasiya proseslərinə başlanılması ilə bağlı məsələlər müzakirə olunacaq. Azərbaycanın keçirdiyi antiterror tədbirləri humanistliyə görə dünyaya bir nümunədir. Lokal antiterror tədbirlər mülki insanlardan uzaq ərazilərdə aparıldı, hətta seçilmiş legitim hədəfləri olan əraziyə mülki insanların gətirildiyi ehtimal olunanda zərərsizləşdirmə əməliyyatı təxirə salındı".

Deputat qeyd edib ki, Azərbaycan Qarabağdakı erməni sakinləri öz vətəndaşları hesab edir və onların da ölkəmizin digər milli azlıqların nümayəndələri kimi malik olduqları hüquqları var. Azərbaycan lokal antiterror tədbirləri aparmaqla 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın 4-cü bəndini icra etdirdi. Ermənistanın icra etmək istəmədiyi öhdəliklərini biz güc yolu ilə icra etdirməyə məcbur olduq. Ermənistan birdəfəlik bilməlidir ki, onların Azərbaycanın qanunları altında yaşamaqdan başqa yolu yoxdur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Hayastanda dövlət çevrilişinə kütləvi hazırlıq gedir

Hayastanda narazılıq və qarşıdurma həddinin daha da yüksəlməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur.






Müxalifətin İrəvanda keçirdiyi etiraz aksiyaları artıq iki gündür davam edir. Aksiyalarla separatçıları dəstəkləyən qüvvələr baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki heç bir nəticəyə nail ola bilməyiblər. Müxalifətçilər etirazlarına əsas səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

### Prodüserin hakimiyyət sevdası

Ümumiyyətlə, 2018-ci il inqilabından sonra Hayastanda xalq arasında nüfuzunu itirən Sarkisyan-Koçaryan koalisiyasına havadarlıq edənlər artıq başqa adlar üzərində axtarışa başlayıblar. Görünən odur ki, bunlardan biri də "Ana Ermənistan" blokunun rəhbəri Andranik Tevanyandır. Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldıran, səsləndirdiyi fikirləri, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alan Tevanyan Hayastanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Kimdir Tevanyan? İrəvan Memarlıq və İnşaat İnstitutunun İqtisadiyyat və inşaatın idarə edilməsi fakültəsini iqtisadçı mühəndis ixtisası üzrə bitirib. O, əmək fəaliyyətinə 1998-ci ildə Mayr Hayrenik televiziya şirkətində siyasi şərhçi kimi başlayıb. Növbəti il o, Ermənistan Milli Televiziyasında "Fair" iqtisadi bülleteninin aparıcısı olub. 1999-2000-ci illərdə Ermənistan iqtisadiyyat nazirinin müşaviri və mətbuat katibi olub. 2000-ci ildə AR televiziya şirkətinin əməkdaşı olub. Həmin ilin sentyabrından 2001-ci ilin martına qədər AR-nin icraçı direktoru olub. AR televiziya şirkətinə direktor təyin olunana qədər jurnalist və prodüser kimi çalışıb.

2021-ci il parlament seçkilərində Ermənistan partiyalar blokunun siyahısı üzrə parlamentin deputatı seçilib. 2023-cü ildə isə bələdiyyə seçkilərində 15,4 faiz səs toplayaraq üçüncü yeri tutan "Ana Ermənistan" blokuna rəhbərlik edib. Son iki gündə isə Tevanyan Qarabağın Azərbaycanın tərkibindən çıxmasını və Ermənistanın baş naziri Nikol Paşinyanın tutduğu vəzifədən uzaqlaşdırılmasını tələb edib.

### İrəvan və regionlarda tətil çağırışı

İrəvan sakinləri hökumət binası qarşısına toplaşaraq ölkənin baş naziri Nikol Paşinyanın üzə çıxmasını tələb ediblər. Onlar Paşinyanın istefası tələbi yerinə yetirilməyənə qədər meydanı tərk etməyəcəklərini bəyan ediblər. Nümayişçilərlə polis arasında toqquşma nəticəsində 16 polis daxil olmaqla 34 nəfər xəsarət alıb.

Eyni zamanda Rusiyanın İrəvandakı səfirliyinin binasına giriş-çıxış etirazçılar tərəfindən bağlanmışdı. Diplomatik nümayəndəlik tədbir görmək üçün Ermənistan Xarici İşlər Nazirliyinə nota göndərib.

"Ana Ermənistan" blokunun rəhbəri Andranik Tevanyan canlı efirdə ölkə vətəndaşlarını İrəvanda və regionlarda əmək tətillərinə çağırıb. Aksiya iştirakçıları təxribatçı çağırışlar edərək Azərbaycan ərazisində mövcud olmuş keçmiş separatçı rejimə qondarma bayraqlarla dəstəklərini ifadə ediblər. "4rd.am" nəşri isə yazır ki, müxalif qüvvələr İrəvanda və bölgələrdə itaətsizlik aksiyaları keçirmək məsələsini müzakirə edirlər.

### Etirazlar səngimir

Dünən də İrəvanda hökumət binası yaxınlığında etiraz aksiyası keçirən müxalifət nümayəndələri ilə polislər arasında toqquşma olub. Bir neçə etirazçı yerə yıxılan polisi döyüb. Sosial şəbəkələrdə paylaşımlara görə, müxalifət düşərgəsində həbslərin aparılması planlaşdırılır və qeyd olunur ki, kütləvi etiraz aksiyalarının qarşısını almaq üçün hakimiyyət xüsusi plan hazırlayıb. Buraya müxalifət fəallarına qarşı güc tətbiq edilməsindən tutmuş, onların mitinq keçiriləcək ünvana daxil olmazdan əvvəl müvəqqəti həbsinə kimi müxtəlif planlar daxildir. O da vurğulanır ki, bu işdə təkcə polis yox, digər güc strukturlarının və hakimiyyətin nəzarətində olan xüsusi cəza dəstələrinin nümayəndələri də iştirak edəcəklər. Müxalifət isə hakimiyyət tərəfindən yaradılacaq bütün maneələrə rəğmən etiraz mitinqlərinin baş nazirin istefasına qədər davam edəcəyini bildirib. Belə ki, parlament müxalifəti gələn həftə hakimiyyətə qarşı küçə mübarizəsinə başlayacaqlarını bəyan edib.

Qeyd edək ki, Konstitusiya quruluşunu devirməyə çağırış edən 4 nəfər həbs edilib, 7 cinayət işi başlanılıb.

Bu arada Hayastanın baş naziri Nikol Paşinyan ölkədə müxtəlif yerlərdən dövlət çevrilişinə çağırışlar edildiyini bildirib. O, həmçinin vurğulayıb ki, hakimiyyət indi heç bir kəskin və avantürist addımlar atmamalıdır.

Beləliklə, bütün bunların fonunda hazırkı durumdan maksimum yararlanmağa çalışan müxalifətin əsl istəyi bəlli olur. Yeni simalarla üzə çıxan və hakimiyyət dəyişikliyinin labüdlüyünü bəyan edən bir qrup müxalif, Qərblə əməkdaşlığın, digər bir qrupu isə Rusiya ilə işləməyin tərəfdarıdır. Bu mübarizədən kimin qalib ayrılacağını isə zaman göstərəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Qazaxıstan Azərbaycanın ərazi bütövlüyünə tam dəstəyini bir daha təsdiqləyib

"Qazaxıstan qardaş Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə tam dəstəyini bir daha təsdiq edir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel bildirib.



Diplomat qeyd edib: "Azərbaycan tərəfinin Qarabağın erməni əhalisinin nümayəndələri ilə görüşün keçirilməsi ilə bağlı təşəbbüsünü alqışlayırıq. Yaranmış vəziyyətin Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində sülh dialoqu yolu ilə tezliklə həll olunmasına ümid edirik. Əminik ki, Cənubi Qafqazda sülh atmosferinin və qarşılıqlı faydalı əməkdaşlığın bərqərar olması, bütün kommunikasiyaların açılması regionun bütün ölkələrinin maraqlarına cavab verir".

## Ermənilər mülki şəxslərə qarşı cinayət törətməyə davam edirlər

"Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yaradılmış Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən dünən iriçaplı silahlardan, o cümlədən minaatanlardan atəşə tutularaq törədilən terror hücumları nəticəsində 2 mülki şəxs - Şuşa şəhərində mənzil-kommunal və təmir xidməti mühəndisi işləyən 1967-ci il təvəllüdlü Vidadi Fərhadov adlı şəxs qətlə yetirilib, Ağdam rayonunda isə ərazidə bərpa quruculuq işləri aparan şirkətlərdən birinin ekskavator operatoru 1992-ci il təvəllüdlü mülki şəxs Mehman Həsənovun çoxsaylı qəlpə xəsarətləri yetirilməklə qəsdən öldürülməsinə cəhd edilib".

AZƏRTAC xəbər verir ki, bu sözləri Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov sentyabrın 20-də keçirilən brifinqdə söyləyib.

"Bütün bunlar onu göstərir ki, qanunsuz erməni silahlı birləşmələri yenə də əvvəlki dövrdə olduğu kimi, mülki şəxslərə qarşı terror cinayətlərini törətməkdə davam edirlər. Baş vermiş hər bir faktla bağlı cinayət işləri başlanmaqla istintaq aparılır, hazırkı şəraitdə prokurorluq əməkdaşları tərəfindən mümkün olan istintaq hərəkətləri aparılır, həmçinin mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib. Təəssüflər olsun ki, dünəndən bəri bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən əhalinin həssas olduğu mövzulara dair, xüsusilə yalandan çoxlu sayda şəhidlərimizin olması barədə süni ajiotaja səbəb olan, rəsmi dövlət qurumları ilə dəqiqləşdirilməmiş informasiyalar ictimailəşdirilir.

Nəzərə çatdırılır ki, internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması məsuliyyətə səbəb olur" deyən K.Zeynalov vurğulayıb.

O bildirib ki, hüquq-mühafizə orqanları hazırda koordinasiyalı fəaliyyət göstərir və bu tipli istənilən qanunsuz hərəkətin qarşısı alınacaq: "Qanunsuz hərəkətə yol vermiş şəxslər məsuliyyətə cəlb olunacaq. Əminliklə bildiririk ki, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, yenə də vətəndaş-dövlət birliyini nümayiş etdirəcək və qanunsuz əməllərə yol verilməyəcək".

## Ermənilərin Ağdamı atəşə tutması nəticəsində xəsarət alan mülki şəxsin vəziyyəti stabildir

Ötən gün Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Ağdam rayonunun iriçaplı silahlardan atəşə tutulması nəticəsində yaralanan ekskavator operatorunun vəziyyəti stabildir.

AZƏRTAC xəbər verir ki, qəlpə yaraları alan Mehman Həsənov Ağdam Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Sağ diz və sol dirsək nahiyələrinin qəlpə yaralanması diaqnozu ilə gətirilən M.Həsənova lazımi tibbi yardım göstərilib. Həkimlərin verdiyi məlumata görə, hazırda vəziyyəti stabildir, müalicəsi davam etdirilir.

Qeyd edək ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində qanunsuz Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Ağdam rayonunun iriçaplı silahlardan, o cümlədən minaatanlardan atəşə tutularaq törədilən terror hücumu nəticəsində ərazidə bərpa-quruculuq işləri aparan şirkətlərdən birinin ekskavator operatoruna - 1992-ci il təvəllüdlü mülki şəxs Həsənov Mehman Fikrət oğluna çoxsaylı qəlpə xəsarətləri yetirilməklə qəsdən öldürülməsinə cəhd edilib.

Faktla bağlı Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 29, 120.2.11, 29, 120.2.12 (terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik niyyətilə adam öldürməyə cəhd), 214.2.1, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qrupların tərkibində müəssisələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə basqınetmə, ağır nəticələrə səbəb olma) və digər maddələri ilə cinayət işi başlanılıb.

# LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ UĞURLA BAŞA ÇATDI

## Ağ bayraqla gəlirlər

### Qələbə bir günə təmin edildi

**Azərbaycan Silahlı Qüvvələrinin birgünlük antiterror tədbirləri uğurla başa çatdı. Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı tarixinin ən qüdrətli Azərbaycanının gücünün, yüksək peşəkarlığın və mükəmməl hazırlanan planın bariz təcəssümüdür.**

İkinci Qarabağ müharibəsində gücünü nümayiş etdirən qüdrətli Azərbaycan birgünlük uğurlu antiterror tədbirləri ilə bir daha göstərdi ki, öz suveren ərazilərində "boz zona"nın yaranmasına imkan verməyəcək.

Bu qələbə ilə Azərbaycan həm də bütün şərtlərini qəbul etdirdi və bundan sonra öz ərazisinə tam nəzarət edəcək.

Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri sentyabrın 20-də başa çatdı. Antiterror tədbirləri çərçivəsində qarşı tərəfə məxsus hərbi təyinatlı texnikalar sıradan çıxarıldı, döyüş mövqeləri və sığınacaqları zərərsizləşdirildi.

Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı Qüvvələrimizin nəzarətinə keçirilib. Eyni zamanda qarşı tərəfə məxsus hərbi nəqliyyat vasitələri, minaatanlar, tank və piyadanın döyüş maşınları, eləcə də xeyli sayda silah-sursat Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq götürülüb.

Bütün bunlar 24 saat ərzində keçirilən antiterror tədbirləri nəticəsində reallaşdı. Yəni qeyri-qanuni cinayətkar rejim cəmi bir günə tərk-isilah olundu və Azərbaycanın şərtlərini qəbul edərək ağ bayraq altında Yevlax şəhərində danışıq aparmağa hazır olduğunu bəyan etdi.

Əslində, Azərbaycan reinteqrasiya məsələlərini müzakirə etmək üçün bir neçə dəfə ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrini dialoqa çağırmışdı. Amma hər dəfə onlar bundan imtina etmişdilər. Bu dəfə isə onlar buna məcbur edildilər. Onlar hələ Birinci Qarabağ müharibəsində "Yevlaxa qədər gələcəyik" deyirdilər. İndi isə bəli, 31 ildən sonra, amma ağ bayraq qaldırmış üzüqara məğlub kimi Yevlaxa gəlirlər...



Azərbaycan Ordusu Qarabağda keçirdiyi birgünlük lokal xarakterli antiterror tədbirləri ilə cinayətkar rejimi diz çökdürməklə suverən ərazilərində "boz zona"nın yaradılması cəhdinin qarşısını aldı.

Antiterror tədbirlərinə başlamazdan əvvəl Azərbaycan üç şərt irəli sürmüşdü: Ermənistan hərbi birləşmələri bölgədən çıxır, qanunsuz silahlı birləşmə tərk-silah olur, qondarma qurum özünü buraxır. Bu şərtlər qəbul olunduğu təqdirdə danışıqlar başlayır.

Hayastandakı bəzi qüvvələrin həyata keçirilən antiterror tədbirləri ilə bağlı dünyaya uydurma, yalan dolu məlumatlar yaymaq cəhdləri də iflasa uğradı. Belə ki, Ermənistanda aranı qarışdırmağa çalışan keçmiş hərbi xuntanın tör-töküntüsü Azərbaycan Silahlı Qüvvələrinin antiterror tədbirləri çərçivəsində guya mülki əhalinin hədəfə alınması, yaşayış məntəqələrinə zərbələr endirilməsi ilə bağlı yalan məlumatlar yayırdılar. Azərbaycan Müdafiə Nazirliyinin faktlar əsasında, vidogörüntülər vasitəsilə dünyaya təqdim etdiyi məlumatlar ermənilərin növbəti yalanını ifşa etdi.

Ümumiyyətlə, Silahlı Qüvvələrimiz tərəfindən keçirilən tədbirlər çərçivəsində mülki şəxslər və heç bir mülki obyekt qətiyyən hədəfə alınmadı, yalnız legitim hərbi hədəflər bölmələrimiz tərəfindən zərərsizləşdirildi.

Amma antiterror tədbirləri keçirilən zaman erməni xisləti yenə də özünü göstərdi. Qondarma cinayətkar rejimin silahlı dəstələrinin Şuşaya artilleriya atəşi nəticəsində bir mülki şəxs həlak oldu.

Digər vacib bir məsələ isə o oldu ki, "gücü" tükənən qeyri-qanuni silahlı birləşmələr Qarabağın dinc erməni əhalisini məcburi qaydada silahlandıraraq döyüş mövqelərinə cəlb etməyə çalışdı. Lakin Azərbaycan bölgədə yaşayan erməni sakinlərinə separatçılara yaxın durmamağa və onlara dəstək olmamağa çağırış etdi və hərbi qulluqçularımız bu çağırışı çap edilmiş məlumat vərəqələrində müxtəlif vasitələrlə yerli əhaliyə, eləcə də silahlılara çatdırdı. Kriminal xuntanın qurbanı olan Qarabağdakı erməni əhali isə Azərbaycanın şərtlərini, tələblərini və çağırışlarını qəbul etdilər.

Bu qələbə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində həyata keçirilən prosesə, bölgədə əmin-amanlığın bərqərar edilməsinə, təhlükəsizliyin təmin olunmasına, həmin ərazidə yaşayan insanların Azərbaycan cəmiyyətinə reinteqrasiyasına, qanunlara uyğun formada idarəçiliyin formalaşdırılmasına və bütövlükdə regionun inkişafı ilə bağlı bütün tədbirlərin həyata keçirilməsinə müsbət impuls verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

**Üç il qabaq - 2020-ci ilin payızında Ermənistanın təxribatı nəticəsində başlayan Vətən müharibəsi bu işğalçı ölkənin məğlubiyyəti ilə başa çatdı. Noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli Bəyanat imzalandı. Ermənistan öhdəsinə götürdüyü məsələlərdən yalnız birini - qoşunlarını Ağdam, Laçın və Kəlbəcərdən döyüşsüz çıxarmaqla həyata keçirdi. Üzərinə düşən digər öhdəliklərini isə yerinə yetirmədi. Belə ki, üçtərəfli Bəyanata əsasən, Ermənistan Azərbaycan ərazisindən öz silahlı qüvvələrini tamamilə çıxarmalı və sülh müqaviləsinin imzalanması üçün danışıqlar prosesinə başlamalı idi.**




## Ermənilər ərazisində yaşadıqları Azərbaycan dövlətinin qanunlarına əməl etməlidirlər

Ermənistan Vətən müharibəsindən sonra da ikili oyunlar oynadı. Azərbaycanla sülh müqaviləsi imzalamaqda maraqlı olduğunu bildirsə də, haylar müxtəlif bəhanələr gətirərək prosesin reallaşmasına maneçilik törətdilər. Üstəlik, bu müddət ərzində Ermənistan tərəfindən Azərbaycan torpaqlarında törədilən təxribatların ardı-arası kəsilmədi. İşğal altında saxladığı otuz ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzur ərazilərini mina tarlasına çevirən erməni vandalları Vətən müharibəsi başa çatdıqdan sonra da bu mənfur əməllərindən əl çəkmədilər. Müzəffər ordumusunun azadlığına qovuşdurduğu ərazilərində quruculuq, tikinti-abadlıq işləri həyata keçirən Azərbaycan dövləti bir tərəfdən də ermənilərin növbəti mina terrorunun qarşısını almağa, sülh müqaviləsini imzalamağa çalışdı.

Azərbaycan ərazisində ermənilərin basdırdıqları minaların partlayış səsləri növbəti dəfə sentyabrın 19-da eşidildi. Həmin gün Xocavənddə azərbaycanlı mülki şəxslərin və polis əməkdaşlarının şəhid olmaları, eləcə də sözügedən tarixdə Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidən Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində ordumuzun hərbi qulluqçularının yaralanmaları xəbərləri yenidən Azərbaycan xalqını sarsıtdı.

Rəsmi İrəvanın üçtərəfli Bəyanatın şərtlərini pozması, sülhdən yayınması və ölkəmizə qarşı hərbi təxribatlarını intensivləşdirməsi, eyni zamanda yaratmış olduğu qondarma rejimin Azərbaycana qarşı hərbi təxribatlar, terror aktları törətməkdə davam etməsi dövlətimizi antiterror tədbirləri həyata keçirməyə məcbur etdi. Sentyabrın 19-da Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Həmin gün Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd olundu ki, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliklərinin təmin olunmasıdır: "Bir daha bildiririk ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır. Keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb".

Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı mülki əhalinin təhlükəsizliyi, ərzaq, tibbi vəsait təminatları böyük həssaslıqla, humanizm prinsiplərinə uyğun təmin olundu. Beləliklə, bütün dünya dövlətimizin, xalqımızın humanizmini yenidən gördü.

Silahlı Qüvvələrimiz tərəfindən keçirilən tədbirlər çərçivəsində mülki şəxslər və heç bir mülki obyekt qətiyyən hədəfə alınmadı. Hərbi bölmələrimiz tərəfindən yalnız legitim hərbi hədəflər zərərsizləşdirildi.

Dövlətimiz, xalqımız heç zaman müharibə arzusunda olmayıb. Məqsədimiz və arzumuz ölkəmizdə, regionumuzda sülhün, sabitliyin bərqərar olmasıdır. Odur ki, bir sutkanın tamam olmasına dəqiqələr qalmış separatçıların təslim olması xəbərini sevinclə qarşıladıq.

Dünən Azərbaycan Respublikası Müdafiə Nazirliyindən Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da şərtlər əsasında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunduğu bildirildi. Məlumat verildi ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

Xankəndidəki qanunsuz rejim təslim olduğunu ağ bayraq qaldıraraq bildirdi. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklif etdiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə bu gün - 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş keçiriləcək.

Azərbaycan dövləti lokal antiterror tədbirləri ilə seperatçılara bir daha göstərdi ki, onların bir yolları var, öz bədnam əməllərindən əl çəkməli, regionda sülhün və sabitliyin təminatçısı olan, ərazisində yaşadıqları, vətəndaşı olduqları Azərbaycan dövlətinin qanunlarına əməl etməlidirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Azərbaycan vətəndaşı olmaq ən şərəfli statusdur

### Qarabağda revanşistlər tərəfindən yaradılan "boz zona" aradan qaldırılır

**Azərbaycanın çoxillik Qarabağ münaqişəsi dövründə regionda sülhün və sabitliyin bərpası və davamlılığı üçün səylə çalışdığına, bundan ötrü mümkün olan bütün diplomatik vasitələrdən, beynəlxalq təşkilatların və vasitəçilik imkanlarından istifadə etdiyinə bütün dünya şahidlik edirdi.**

Amma hər dəfə də bunun əksini görürdük. Torpaqlarımızda məskən salan separatçılar və onları dəstəkləyən Ermənistan məkrindən, ərazi iddialarından əl çəkmirdi. Müxtəlif bəhanələrlə sülh danışıqlarını pozub siyasi manipulyasiya edirdi. Üzərinə götürdüyü öhdəlikləri nümayişkaranə şəkildə yerinə yetirmirdi. Silahlanmaya, revanş götürməyə güc verirdi, əməlləri ilə sülhə əngəl olmağa çalışırdı.

Minalanmış ərazilərin düzgün xəritəsini vermək əvəzinə yenidən ərazilərimizə minalar basdırırdı. Azərbaycan səbir, təmkin göstərdikcə Ermənistanda olan revanşistlər və onların xaricdə yaşayan havadarları daha da azğınlaşırdılar. Ölkəmizin birgəyaşayış, reinteqrasiya təkliflərinə separatçıların pul dağarcığı Ruben Vardanyan "vuruşub, son nəfərimizə kimi ölərik, amma sizinlə yaşamarıq" kimi sərsəmləmələrlə cavab verirdilər. Azərbaycanı yenidən müharibəyə cəlb etmək üçün onlara humanitar məqsədlər üçün verilmiş Laçın yolu ilə sərvətimizi talan edərək Ermənistana daşıdılar, eyni zamanda həmin yolla Hindistandan və digər ölkələrdən aldıqları silahları Qarabağa ötürərək qanunlarımızı heçə saydılar.

Bu gün də Ermənistanın hərbi-siyasi rəhbərliyi ölkəmizdə olan silahlı birləşmələrinin tör-töküntülərini, silahı yerə qoymaları barədə əmr vermək, çağırış etmək əvəzinə riyakarlıq edir, bütün dünyanın qarşısında bəyan edir ki, Qarbağda Ermənistanın silahlı qüvvələri yoxdur. Baş verən hadisələrin məsuliyyətini hiyləgərcəsinə boyunlarından atmağa çalışırlar. Təbii ki, Ermənistan rəhbərliyinin məqsədli şəkildə beynəlxalq ictimayyəti aldatmağa yönlənmiş bu yalan haqlı olaraq sual yaradır: əgər Qarabağda olan qanunsuz silahlı birləşmələrin bu ölkəyə aidiyyəti yoxdursa, niyə Ermənistanın dövlət büdcəsindən maliyyələşir? Yaxud, hərbi qulluqçuların komandanlığı nədən Ermənistanın baş qərargahı tərəfindən koordinasiya edilir? Eyni zamanda bu ölkənin məhkəmələri nə əsasla 44 günlük Vətən müharibəsində "vəzifə"lərini yerinə yetirməyən Qarabağ komandirlərini mühakimə edirlər? 2020-ci ilin 44 günlük Vətən müharibəsində fərarilik edən 13 min əsgər və zabit hansı ölkənin vətəndaşı idi?




Ümumiyyətlə, Qarabağda baş verən bütün özbaşınalıqların, qanunsuzluğun, separatçılıq hərəkatının, tökülən qanların günahkarı Ermənistandır, separatçıların rəhbərləridir, onları bu işə vadar edənlərdir. Bu gün Azərbaycanı Qarabağda antiterror tədbirləri keçirməyə də bu ölkənin üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməsi, sözünün üstündə durmaması, ölkəmizə qarşı ərazi iddialarından əl çəkməməsi vadar etdi.

Son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tuturdu. Bu ölkə müxtəlif yollarla ərazilərimizin minalanmasını davam etdirirdi. Sülh danışıqlarını müxtəlif bəhanələrlə pozub döyüş mövqelərini, mühəndis qurğularını təkmilləşdirməyə, eləcə də səngər və sığınacaqların sayının artırılmasına çalışırdı.

Döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, ordumuzun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməlləri Ermənistanın yeni müharibə hazırlığında olduğunu sübut edirdi. Bunlar azmış kimi, Azərbaycanın ciddi xəbərdarlıqlarına baxmayaraq, separatçılar gərginliyi artırmaq məqsədilə təxribat və terror əməllərini daha da artırırdı. Konstitusiyamıza məhəl qoymadan qondarma separatçı rejimə "seçki" keçirdilər. Siyasi təxribatların davamı sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması ilə tamamlandı. Erməni diversiya qrupunun terror aktı nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxdı və mülki şəxslər həlak oldular. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsi də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbçilərimizin bəziləri həlak oldu, yaralandı. Azərbaycan hadisələrin bu cür davam etməsinə sona kimi dözmək niyyətində olmadığını əvvəlcədən bəyan etmişdi. Əlbəttə ki, hadisələrə seyirçi qala bilməzdi. Qalmadı da! Sentyabrın 19-da 30 il torpaqlarımızda qanlar tökmüş separatçı rejimin silahlı dəstələrinə qarşı lokal antiterror tədbirlərinə başladı. Hadisələri izləyən bütün dünya gördü ki, Azərbaycan tərəfi yüksək insani keyfiyyətlərə sadiq qaldığını nümayiş etdirərək yalnız legitim hərbi hədəfləri vurur. Mülki əhalinin təhlükəsizliyi üçün bütün zəruri olan tədbirləri həyata keçirdi. Qocaların, uşaqların, xəstələrin təxliyəsi üçün məntəqələr yaradıb onlara qarşı heç bir zorakılıq edilməyəcəyi barədə səsgücləndiricilərlə məlumat verdi, ehtiyacı olanlara tibbi yardım göstəriləcəyini bildirdi. Azərbaycanın məqsədi öz ərazilərində Konstitusiyanın və qanunçuluğun bərpası, sülhün davamlılığını təmin etmək idi. Buna da illərdir Ermənistanın ərazilərimizdə saxladığı silahlı terrorçular mane olurdular. Separatçılar məkrli niyyətlərinə çatmaqdan ötrü hətta öz millətlərindən olan sadə, mülki şəxslərə belə zor işlətməkdən, qorxu altında saxlamaqdan çəkinmirdilər.

Lokal antiterror tədbirləri keçirilən zaman hadisələri izləyən bütün beynəlxalq təşkilatlar, dövlətlər Azərbaycanın problemin sülh yolu ilə həllində maraqlı olduğunu bir daha gördülər. Ölkəmiz separatçı rejimin qanunsuz silahlılarına müraciət edərək silahı yerə qoyub qanunlarımıza əməl etməyi, müqavimət göstərməməyə, danışıqlar üçün əvvəlcədən nəzərdə tutulduğu Yevlax şəhərinə gəlməyi təklif etdi...

Bir məsələyə də toxunaq. Bu günlərdə Qarabağdakı ermənilər hiss etdilər ki, onları qızışdırıb illərdir qanlı qırğın törətməyə məcbur edənlər, yalan vədlər verib hakimiyyətə, var-dövlətə sahib olanlar hamısı dar məqamda qaçdılar. Anladılar ki, şərtləri diktə edən də, haqq da, ədalət də, qanun da, onların nicatı da Azərbaycandadır və onlara ən doğru yolu göstərən də Azərbaycan olacaq.

Nəhayət, dünən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşən Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri müqavimətin mənasız olduğunu dərk edərək silahı yerə qoyaraq təslim oldular. Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən, hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

Bununla da petrosyanların, koçaryanların, sarkisyanların, paşinyanların yurdumuza gətirdiyi qanlı fəlakətlərin, faciələrin qarşısını İlham Əliyev gərgin əməyi, dərin zəkası, qətiyyəti və bənzərsiz siyasi qabiliyyəti ilə aldı. Bundan sonra ermənilər də anlamalıdırlar ki, ən düzgün variant Azərbaycan qanunlarına əməl edib, ölkəmizin Konstitusiyasının şərtlərinə uyğun yaşamaqdır. Onlar üçün ən böyük status isə elə Azərbaycan vətəndaşları olmalarıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici işlər naziri bir sıra görüşlər keçirib







Sentyabrın 20-də BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq gündəliyi, cari ilin sonunda Qambiyada keçiriləcək İƏT-in Zirvə görüşünə hazırlıq məsələləri, habelə bölgədə cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın İƏT-ə üzv olduğundan bəri təşkilatla qurulan sıx əməkdaşlıqdan məmnunluqla bəhs edərək, bu xüsusda İƏT-in hər zaman ölkəmizin ərazi bütövlüyü və suverenliyi ilə bağlı ədalətli mövqedən çıxış etməsini minnətdarlıqla xatırlayıb. Bu istiqamətdə, xüsusilə Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "seçkilər" adlandırdığı qanunsuz fəaliyyətinin İƏT tərəfindən pislənilməsinin təqdirəlayiq olduğu bildirilib.

Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi dövründə QH ilə İƏT arasında əlaqələrin inkişafı istiqamətində əməli tədbirlərin görüldüyü, bundan sonra bu tərəfdaşlığın institusional çərçivəsinin də müəyyən edilməsinin faydalı olacağına inandığımız bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Azərbaycanın Qarabağ bölgəsində mövcud erməni silahlı birləşmələrinin bölgədəki sülh və stabilliyə əsas təhdid mənbəyi olduğu, bu xüsusda baş verə biləcək təxribatların qarşısının alınması, habelə vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması məqsədilə lokal xarakterli antiterror tədbirlərinin həyata keçirildiyi diqqətə çatdırılıb. Görülən tədbirlərin hədəfinin qanunsuz hərbi birləşmələr və hərbi infrastruktur olduğu, mülki əhalinin hədəf alınmadığı, onların təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Azərbaycanın suveren torpaqlarında 30 illik işğal dövründən qalma, milli qanunvericilik və beynəlxalq hüquqazidd olan hər hansı hərbi mövcudluğun qəbuledilməz olduğu, bu xüsusda tərəfimizdən görülən tədbirlərin bu qanunsuz qüvvələrin çıxarılmasına və qondarma rejimin buraxılmasına istiqamətləndiyi vurğulanıb.

Baş katib Hissein Brahim Taha, İƏT-in ölkəmizin suverenliyi və ərazi bütövlüyünü tam şəkildə dəstəklədiyini diqqətə çatdıraraq bölgədə sabitliyin bərqərar edilməsi istiqamətində göstərilən səylərin dayanıqlı sülh quruculuğu prosesində əhəmiyyətli rolu olduğunu bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sentyabrın 20-də BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Latviya Respublikasının xarici işlər naziri Krişyanis Karins ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, Azərbaycan tərəfindən Qarabağ bölgəsində keçirilən antiterror tədbirlərinin nəticələri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Sözügedən tədbirlər nəticəsində bölgədə sülh və təhlükəsizliyə hədə olan qeyri-qanuni erməni silahlı birləşmələrinin buraxıldığı diqqətə çatdırılıb. Görülən antiterror tədbirləri çərçivəsində mülki şəxslərin hədəf alınmadığı, bu xüsusda onların təhlükəsizliyinin təmini istiqamətində öncədən bütün lazımi tədbirlərin görüldüyü bildirilib.

Nazir Ceyhun Bayramov, beynəlxalq hüquq və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq suveren ərazilərimizdə mövcudluğunu davam etdirən qeyri-qanuni qüvvələrin buraxılmasının həm də Qarabağ bölgəsində yaşayan ermənəsilli sakinlərin də cəmiyyətimizə reinteqrasiyası prosesinin qarşısında duran ən böyük çağırışın aradan qaldırılması olduğunu vurğulayıb. Bu xüsusda Azərbaycanın erməni sakinlərin hüquq və azadlıqlarının, onların təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və tərəfdar çıxdığı beynəlxalq mexanizmlər əsasında təmin etmək əzmində olduğu diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sentyabrın 20-də xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirakı çərçivəsində İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ilə görüş keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, tərəflər strateji xarakter daşıyan ikitərəfli münasibətlərin bütün spektrləri, habelə beynəlxalq və regional məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun bundan sonra da fəal surətdə inkişaf etdirilməsinə hazır olduqlarını ifadə ediblər.

İki ölkə arasında iqtisadi, təhlükəsizlik, turizm, təhsil, ticarət, yüksək texnologiyalar və digər sahələrdə dərin əməkdaşlıq əlaqələrinin qurulduğu məmnunluq hissi ilə qeyd olunub və bu xüsusda Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın uğurlu fəaliyyəti təqdir edilib. Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliklərinin açılmasının, habelə səfirliyinin təsis edilməsinin ikitərəfli əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən həyata keçirilən hərbi-siyasi təxribatlar barədə qarşı tərəfə ətraflı məlumat verib və bu təxribatlara cavab olaraq qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilən antiterror tədbirlərinin əsas məqsədinin bölgədə sülh və sabitliyin bərqərar olunması, qanunsuz qüvvələrin tərk-silah edilməsi və qondarma rejimin buraxılması olduğunu diqqətə çatdırıb.

İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu qeyd edib. Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sentyabrın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində Lixtenşteynin xarici işlər, təhsil və idman naziri Dominik Hasler ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq imkanları, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında əməkdaşlığın inkişafı üçün perspektivlərin mövcudluğundan bəhs edərək, bu xüsusda qarşılıqlı təmasların artırılmasının münasibətlərin inkişafında mühüm rol oynaya biləcəyini qeyd edib.

Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması və sülh prosesi, mövcud çağırışlar və təhdidlər barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Ölkəmiz tərəfindən Qarabağ bölgəsində işğal dövrünün qalıqları olan və beynəlxalq hüquq, habelə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq mövcudluğunu davam etdirən erməni silahlı qüvvələrinə qarşı aparılan antiterror tədbirlərinin uğurla yekunlaşdığı diqqətə çatdırılıb. Sözügedən antiterror tədbirlərinin həyata keçirilməsi zamanı mülki əhalinin təhlükəsizliyinin təmin edilməsinin prioritet olduğu bildirilib.

Ermənistan tərəfindən ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasında səsləndirilən əsasız iddialar, o cümlədən bölgədə guya "gərgin humanitar vəziyyət", "blokada"nın mövcudluğu ilə bağlı yalan fikirlərin əksinə, ölkəmizin hər zaman bütün Azərbaycanda yaşayan sakinlər kimi erməni sakinlərin də hüquq və təhlükəsizliyini qorumaq əzmində olduğu bildirilib və bu xüsusda görülən antiterror tədbirlərinin nəticələrinin faydalı olacağına dair inam ifadə edilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasında iştirakı çərçivəsində Şimali Makedoniya Respublikasının xarici işlər naziri və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri Buyar Osmani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycan-Şimali Makedoniya arasında əlaqələr, Şimali Makedoniyanın 2023-cü ildə ATƏT-ə sədrliyi çərçivəsində təşkilatın gündəliyi, habelə bölgədəki son vəziyyət müzakirə olunub.

Görüşdə nazir Ceyhun Bayramov ölkəmizin keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması, habelə münaqişədən sonra bərpa, yenidənqurma və reinteqrasiya məsələləri, mühüm prioritet olan sülh müqaviləsinin imzalanması, bölgədə sabitliyin bərqərar edilməsi, erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində ardıcıl səylərini xatırladıb.

Ölkəmizin cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi bütün səylərinə baxmayaraq, Ermənistan tərəfinin və qondarma rejimin son təxribatlarının normallaşma prosesinə xələl gətirdiyi, gərginliyin azaldılmasına yönəlmiş bütün təkliflərin rədd edildiyi, bu ölkənin sülh prosesində maraqlı olmadığı diqqətə çatdırılıb.

Azərbaycan hərbçilərinin və mülki şəxslərinin həlak olması ilə nəticələnən terror aktına və hərbi təxribatlara cavab olaraq qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilən antiterror tədbirlərinin əsas məqsədinin bölgədə sülh və sabitliyin bərqərar olması, qanunsuz qüvvələrin tərk-silah edilməsi və qondarma rejimin buraxılması olduğu diqqətə çatdırılıb. Azərbaycanın yalnız hərbi hədəfləri məhv etdiyi, mülki şəxsləri hədəf almadığı bildirilib.

Bölgədə guya "blokada" və "bölgədə gərgin humanitar böhran" kimi iddialara gəldikdə isə, nazir Ceyhun Bayramov bu iddiaların heç bir əsasının olmadığını, Ermənistanın qəsdən vəziyyəti "humanitar" xarakterli məsələ kimi təqdim etdiyini, qondarma humanitar böhran yaratmaq məqsədi daşıyan bu addımın, əslində, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş bir siyasi manipulyasiya olduğunu, sıravi sakinlərin isə bu siyasi avantüranın girovu kimi saxlanıldığını vurğulayıb.

Bu xüsusda, 18 sentyabr tarixində BQXK-nın iki avtomobilinin biri Ağdam-Xankəndi, digəri isə Laçın-Xankəndi yolu ilə eyni vaxtda keçidinin təşkilinin ölkəmizə qarşı "blokada" ittihamlarının heç bir əsasının olmadığını nümayiş etdirdiyini qeyd edib.

Nazir Ceyhun Bayramov Ermənistan baş nazirinin 2 sentyabr tarixində qondarma rejimi təbrik etməsi daxil, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddiaların sülh prosesinə xələl gətirdiyini vurğulayıb.

Görüşdə, həmçinin iki ölkə arasında ikitərəfli və çoxtərəfli gündəlik üzrə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*AZƏRTAC*

# Azərbaycan Milli Kitabxanasının 100 illiyi münasibətilə beynəlxalq elmi-praktik konfrans keçirilib



M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında dünya milli kitabxanalarının rəhbərlərinin iştirakı ilə "Milli kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur" mövzusunda beynəlxalq elmi-praktik konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan Milli Kitabxanası haqqında qısa sənədli film nümayiş olunub.

Milli Kitabxananın direktoru Kərim Tahirov beynəlxalq elmi-praktik konfransın plenar iclasını açıq elan edib.

Mədəniyyət naziri Adil Kərimli Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi münasibətilə kitabxananın əməkdaşlarına təbriklərini çatdırıb. Kitabxanaların dünya mədəniyyətinin təbliğində böyük rol oynadığını söyləyən nazir qeyd edib: "Ötən əsrin 90-cı illərinin sonlarında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasət öz nəticələrini verməyə başlamış, həmçinin mədəniyyət sahəsinə diqqət və qayğısının nəticəsi olaraq Milli Kitabxananın fəaliyyətində nəzərəçarpacaq irəliləyişlər özünü göstərmişdir. Bu gün Milli Kitabxana xalqımızın Ümummilli Lideri Heydər Əliyevin mədəniyyət siyasətini böyük uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində özünün çiçəklənmə dövrünü yaşayır və günü-gündən inkişaf edərək dünyanın ən modern kitabxanalarının sırasına daxil olmuşdur", - deyə A.Kərimli qeyd edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Milli Kitabxananın 100 illik yubileyi münasibətilə əməkdaşları təbrik edib, təşkil olunmuş bu konfransda iştirakdan məmnun olduğunu diqqətə çatdırıb. O, kitabxana işçilərini mədəniyyətimizin qoruyucuları adlandırıb, ölkəmizdə kitaba, kitabxanaya verilən xüsusi dəyərdən danışıb. Natiq Azərbaycanda kitabxana ənənələrinin qədimliyindən bəhs edərək, eyni zamanda Abbasqulu ağa Bakıxanovun şəxsi kitabxanasının Sankt-Peterburq kitabxanasında qorunduğunu da vurğulayıb.

Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda əməkdaşları bu əlamətdar yubiley münasibətilə təbrik edib, kitabxananın direktoru Kərim Tahirovun peşəkarlığının həmkarları üçün böyük motivasiya olduğunu qeyd edib.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov ölkəmizdə kitabxanalara milli şərəfimiz kimi baxıldığını söyləyib, kitabxanaları tarixi coğrafiya adlandıraraq Milli Kitabxananın xalqımızın intellektinin formalaşmasındakı rolundan danışıb, kitabxananın biblioqrafiyalaşdırma sahəsindəki milli biblioqrafik repertuarımızın yaradılmasındakı əhəmiyyətini vurğulayıb.

Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsinin təkcə kitabxanaçılar üçün deyil, həmçinin bütün oxucu nəsli üçün də əlamətdar olduğunu bildirib.

Roma Mərkəzi Milli Kitabxanasının direktoru Stefano Campagnolo konfransda iştirak üçün dəvətə görə minnətdarlığını bildirib, kitabxanaları məbədgah adlandırıb.

Konfrans plenar iclaslarla davam edib.

Konfransda Azərbaycan Milli Kitabxanasının direktor müavini, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova "Azərbaycan Milli Kitabxanası Azərbaycan xalqının mənəvi yaddaşının qoruyucusudur", Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda "Kitabxanaların fəaliyyətinin strateji istiqamətləri", Roma Milli Mərkəzi Kitabxanasının direktoru Stefano Campagnolo "Yeni üfüq. Milli kitabxanaların gələcəyi necədir?", Qətər Milli Kitabxanasının direktoru Tan Huism "Toplayın, qoruyun və məşğul olun: Qətər Milli Kitabxanasının təcrübələri", Martynas Majvydas adına Litva Milli Kitabxanasının direktoru Renaldas Gudauskas "Litva Milli Kitabxanası yaradıcı prosesdə", Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Mayıl Əhmədov "Cəmiyyətin informasiya təminatında milli kitabxanaların rolu", M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının baş direktoru Pavel Leonidoviç Kuzmin "Kitabxana mədəniyyətlərarası dialoqun mərkəzi kimi" mövzularda çıxışlar ediblər.

Daha sonra Azərbaycan Milli Kitabxanası ilə Pakistan, Rusiya, Litva Milli kitabxanaları, Roma Mərkəzi Milli Kitabxanası və Makedoniyanın Kliment Ohrid Universitet və Milli Kitabxanası (Skopye) arasında qarşılıqlı əməkdaşlığa dair memorandumların imzalanma mərasimi keçirilib.

Həmçinin Milli Kitabxananın tarixinə aid "Milli Kitabxananın qızıl fondundan", "Milli musiqi xəzinəmizdən" və "Milli Kitabxananın nəşrləri" adlı kitab sərgiləri də təşkil edilib.

Qonaqlar yubiley münasibətilə hədiyyələrini Milli Kitabxanaya təqdim ediblər.

Qeyd edək ki, konfrans işini sentyabrın 21-dək davam etdirəcək.

# SOCAR ilə bp arasında uzunmüddətli uğurlu əməkdaşlıq mövcuddur



Sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf bp şirkətinin İdarə Heyətinin sədri Helqe Landı, şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən şirkətin sabiq baş icraçı direktoru Lord Con Filip Braun ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə bp-nin ölkəmizdəki səmərəli fəaliyyətindən, SOCAR ilə bp arasında uzunmüddətli uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edilib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"nin Azərbaycanın yeni enerji strategiyasının əsasını qoyduğu, ölkəmiz ilə yanaşı, regionun iqtisadi inkişafına mühüm töhfə verdiyi diqqətə çatdırılıb. Tərəflər enerji layihələri üzrə mövcud əməkdaşlıq imkanlarını nəzərdən keçirib, insan kapitalı sahəsində təcrübə mübadilələrinin həyata keçirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

# *Gürcü bloqçu:* "Münaqişənin başa çatması regionun inkişafına təkan verəcək"

"Azərbaycanın Qarabağ iqtisadi rayonunda antiterror tədbirlərinin nəticələri məlum idi. Hamı, o cümlədən Ermənistanın özü üçün bu cür nəticə gözlənilirdi".

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü bloqçu Giorgi Caxaya söyləyib.

Onun sözlərinə görə, Qarabağ Ermənistanın "kürəyində daşıya bilmədiyi ağır bir yük" idi. Sadəcə olaraq, bəzi qüvvələr Ermənistanın bu yükdən azad olmasına imkan vermirdi. Regionda sabitliyin, sülhün, inkişafın əleyhinə olan qüvvələr erməni separatçılarının əli ilə Azərbaycana qarşı daim kampaniya aparıblar. Nəhayət, Azərbaycanın başlatdığı antiterror tədbirləri öz nəticəsini verdi.

Bloqçu qeyd edib ki, Qarabağda separatçıların təslim olması və münaqişənin başa çatması Ermənistanın özünün blokadadan çıxmasına, dünyaya açılmasına, ümumilikdə regionun inkişafına təkan verəcək. Eyni zamanda qlobal nəqliyyat layihələrinin reallaşmasına imkan yaranacaq.

"Qarabağ məsələsinin bu cür başa çatması regiondakı digər münaqişələrin də həllinə səbəb ola bilər. Bu da ümumilikdə Cənubi Qafqazın inkişafına, çiçəklənməsinə səbəb olacaq", - deyə Caxaya vurğulayıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 100 mənzil verildi



**Bu il artıq 750, postmüharibə dövründə 5 250, ümumilikdə ötən dövrdə 14 050 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə Abşeron rayonunda, Bakının Ramana, Kürdəxanı qəsəbələrində və Gəncə Şəhərində daha 100 mənzil verilib.

Gəncədə mənzillərin sənədlərinin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev və Gəncə şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev iştirak ediblər.

H.Abdullayev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə göstərilən dövlət qayğısından bəhs edib. Bildirilib ki, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi, onların mənzillə təminatı tədbirlərinə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib.

Qeyd olunub ki, bu gün Bakı və Gəncə şəhərlərində, Abşeron rayonunda təqdim edilən 100 mənzil də daxil olmaqla bu il 750, postmüharibə dövründə 5 250, ümumilikdə ötən dövrdə 14 050 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara təqdim olunub.

Prezidentin sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunurlar.

44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olanlara postmüharibə dövründə 324, ümumən ötən dövrdə 7500-dən çox avtomobil verilib.

S.Tomuyev Gəncədə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi sahəsində görülən işlərdən bəhs edib.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Azərbaycan İsrail ilə aqrar sektorda da səmərəli əməkdaşlıq edir

**Azərbaycanla İsrail arasında əlaqələrin bütün istiqamətlərdə geniş inkişafını təsdiq edən kifayət qədər faktlar mövcuddur. Bunlardan bəzilərini qısa da olsa, xatırlamaq yerinə düşərdi.**

İsrail Dövlətinin Prezidenti İsxak Hersoq cari ilin mayında Azərbaycana rəsmi səfərə gəlmiş, bu yaxınlarda isə Azərbaycan Prezidentinin köməkçisi İsrailə səfər etmişdir. Bu ilin martında ölkəmizin İsraildə səfirliyinin açılması da ikitərəfli əlaqələrin dərin inkişafına təkan verən xüsusi amildir. Artıq təhlükəsizlik, iqtisadiyyat, enerji, turizm, təhsil və digər sahələrdə daha geniş əməkdaşlıq əlaqələri qurmaq üçün böyük imkanlar yaranmışdır.

Biz uzun illərdir İsraillə xam neftin etibarlı təchizatçısı olmaqla yanaşı, enerji sahəsində sıx əməkdaşlıq edirik. İrriqasiya və kənd təsərrüfatı sahəsində görülən işlərin siyahısı da kifayət qədər uzundur. İsrailin bu sahədəki nailiyyətlərindən bizim kənd təsərrüfatında xüsusən məhsuldarlığın artırılması üçün geniş istifadə edilir.

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də İsrailin ölkəmizdə səfərdə olan kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul etmişdir. Görüşdə iki ölkə arasında münasibətlərin real durumu və perspektivlər müzakirə edilmişdir. Bu, təsadüfi deyil. Hazırda iki ölkə arasında ən çox diqqət yetirilən sahələrdən biri də aqrar sektordur, daha doğrusu, kənd təsərrüfatında əməkdaşlığı inkişaf etdirmək və bu sahədə əlaqələrin daha da genişlənməsi üçün movcud potensialdan yetərincə faydalanmaqdır.

Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti hələ bir neçə il əvvəl İsraildə olarkən aqrar tədqiqatlar sahəsində əməkdaşlığın genişləndirilməsi, kadr hazırlığı, təhsil sahəsində və iki ölkənin şirkətləri arasında kənd təsərrüfatının müxtəlif sahələri üzrə əməkdaşlıq etmək barədə razılıq əldə edilmiş, İsrail texnologiyalarının Azərbaycanın aqrar sektorunda tətbiqi müzakirə olunmuşdur. Ötən il isə İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı nazirinin Azərbaycana səfəri aqrar sektorda gələcək əlaqələrin innovasiyalar üzərində inkişafına əlavə təkan vermiş, dost ölkənin bu sektordakı böyük imkanlarından faydalanmaq üçün yeni imkanlarımız yaranmışdı. Söz düşmüşkən, artıq işğaldan azad edilmiş torplaqlarımızda İsrailin "yaşıl texnologiyalar" təcrübəsindən geniş istifadə edilir.

Son səfər çərçivəsində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və İsrail dövlətinin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi arasında "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi"ni, eləcə də "2023-2025-ci illər üçün kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi"nin imzalanmasını isə bütün bu işlərin davamı kimi qəbul etmək olar. Bəyannamədə qeyd olunan sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi niyyəti öz əksini tapmış, ortaq layihələrin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün birgə işçi qrupunun yaradılması nəzərdə tutulmuşdur.



Bu gün erməni işğalından azad edilmiş ərazilərdə həyata keçirilən kənd təsərrüfatı layihələri çərçivəsində su mənbələrinin bərpası və irriqasiya sistemi ilə bağlı İsrail təcrübəsinə əsaslanan genişmiqyaslı işlər aparılır. Həmin təcrübənin Qarabağ və Şərqi Zəngəzurda, ümumiyyətlə, ölkəmizdə geniş yayılması aqrar sektorun simasını sürətlə dəyişməyə imkan verir. Azərbaycan həm də İsrailin sudan səmərəli istifadə üsullarından, çirkli suların təmizlənməsi təcrübəsindən yararlanmaq niyyətindədir. İsrailin intensiv bağçılıq, super intensiv bağçılıqda damcılı suvarma sistemlərinin tətbiqi ilə bağlı təcrübəsi də bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Yeri gəlmişkən, qeyd edək ki, İsrail Azərbaycanda aqrar sahənin su təminatı ilə bağlı 30 illik plan hazırlayır. Bir sözlə, iki ölkə arasında inkişaf edən geniş əlaqələr bütün sahələrdə, o cümlədən aqrar sektorda əməkdaşlığın dərinləşməsinə zəmin yaradır, qarşılıqlı fayda verir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Xarici ticarətdə 7,2 milyard dollarlıqdan çox müsbət saldo var

**Bu ilin yanvar-iyul aylarında Azərbaycan 190 ölkədə tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 111 ölkəyə məhsul ixrac, 181 ölkədən idxal olunmuşdur.**

Dövlət Statistika Komitəsi bildirir ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar-iyul aylarında ölkənin xarici ticarət dövriyyəsi 26 milyard 333,2 milyon dollar təşkil etmişdir. Ticarət dövriyyəsinin 16 milyard 776,7 milyon dollarını və ya 63,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 9 milyard 556,5 milyon dollarını (36,3 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmişdir. Nəticədə 7 milyard 220,2 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

Hesabat dövründə 2022-ci ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 14,2 faiz azalmış, real ifadədə isə 1,4 faiz artmışdır. İdxal real ifadədə 8,0 faiz artmış, ixrac isə 0,7 faiz azalmışdır. 2023-cü ilin yanvar-iyul aylarında qeyri-neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 17,8, real ifadədə 14,2 faiz artaraq 2 milyard 6,9 milyon dollar təşkil etmişdir.



Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsinin 31,6 faizi İtaliya, 15,6 faizi Türkiyə, 8,1 faizi Rusiya, 5,3 faizi Çin, hər biri 3,2 faiz olmaqla Almaniya və Yunanıstan, 2,8 faizi İsrail, 2,6 faizi Hindistan, 2,4 faizi İspaniya, hər biri 1,9 faiz olmaqla Çexiya və Türkmənistan, 1,7 faizi Gürcüstan, hər biri 1,5 faiz olmaqla Rumıniya və Fransa, 1,3 faizi İrlandiya, hər biri 1,0 faiz olmaqla Xorvatiya, Birləşmiş Krallıq və ABŞ, 0,9 faizi İran, 11,5 faizi isə digər ölkələrlə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

İxracın 44,9 faizini İtaliyaya, 16,5 faizini Türkiyəyə, 4,6 faizini Yunanıstana, 4,0 faizini İsrailə, 3,4 faizini Rusiyaya, hər biri 3,2 faiz olmaqla Hindistan və İspaniyaya, 2,5 faizini Çexiyaya, 2,2 faizini Gürcüstana, hər biri 2,1 faiz olmaqla Rumıniya və Almaniyaya, 1,8 faizini İrlandiyaya, 1,5 faizini Xorvatiyaya, 1,0 faizini Bolqarıstana, 0,8 faizini Vyetnama, 0,7 faizini Avstriyaya, hər biri 0,6 faiz olmaqla Fransa və Birləşmiş Krallığa, 4,3 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir. Qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (32,0 faiz), Türkiyəyə (27,7 faiz), Gürcüstana (9,9 faiz), İsveçrəyə (4,1 faiz), Qazaxıstana (3,3 faiz), Türkmənistana (2,6 faiz), Ukraynaya (2,0 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (1,7 faiz), Özbəkistana (1,3 faiz), Latviyaya (1,2 faiz), İtaliyaya (1,2 faiz), Rumıniyaya (1,2 faiz), Çinə (1,2 faiz), Almaniyaya (1,0 faiz), Qırğızıstana (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir. Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,1 faizi Rusiya, 16,3 faizi Çin, 13,8 faizi Türkiyə, 5,8 faizi Almaniya, 5,4 faizi Türkmənistan, 3,3 faizi Fransa, 3,0 faizi ABŞ, 2,8 faizi İran, 2,6 faizi İtaliya, hər biri 2,5 faiz olmaqla Koreya və Yaponiya, 1,9 faizi Birləşmiş Krallıq, hər biri 1,8 faiz olmaqla Belarus və Qazaxıstan, 1,4 faizi Ukrayna, hər biri 1,3 faiz olmaqla Braziliya və Hindistan, 1,0 faizi Polşa, 0,8 faizi Vyetnam, 12,6 faizi isə digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

## AÇG-nin səmt qazı - hər tərəfdən sərfəli



**Neft yataqlarından eyni zamanda səmt qazının, qaz yataqlarından isə mavi yanacaqla birlikdə yüksəkkeyfiyyətli neftə bərabər kondensatın da çıxarılmasını təbiətin səxavəti, bəlkə də möcüzəsi adlandırmaq olar. Bu zənginlikdən Azərbaycanın karbohidrogen yataqlarına da bol pay düşüb.**

Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarını misal göstərək. Bu nəhəng yataqlar blokundan indiyədək milyardlarla kubmetr qaz hasil edilib. Mavi yanacağın böyük hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilib. Belə ki, səmt qazı dənizdən sualtı xətlərlə Səngəçal terminalına çatdırılır. Buradan isə SOCAR-a məxsus olan kəmərlə "Azəriqaz" sisteminə ötürülür. Qazın qalan hissəsi yataqlarda layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur.

AÇG-nin operatoru olan bp şirkətinin verdiyi məlumata görə, təkcə bu ilin birinci yarısında Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə isə 1,1 milyard kubmetr səmt qazı təhvil verilib. Qazın qalan hissəsi layların təzyiqinin saxlanılması məqsədilə istifadə edilib.

Lakin AÇG-nin qaz töhfəsi bununla bitmir. Blokun dərin qazının olduğu barədə də ehtimallar çoxdur. Odur ki, cari ilin birinci yarısında "Azəri-Çıraq-Günəşli" strukturunda hazırda istismarda olan neft yatağının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədilə yeni bir qiymətləndirmə quyusu (A22z) qazılıb. Quyunun qazılmasına fevralın 7-də başlanıb və aprel ayında qazma tamamlanıb. Hazırda dərin qaz laylarının potensialını öyrənmək məqsədilə quyudan əldə olunmuş məlumatın təhlili aparılır.

"Şahdəniz"də isə yeni bir kəşfiyyat quyusunun (SDX-8) qazılması davam edir. Qazma işlərinə bu il yanvarın 20-də Heydər Əliyev adına yarımdalma qazma qurğusu ilə başlanıb.

Son vaxtlar Azərbaycana verilən səmt qazının həcminin artırılacağı barədə də söhbət gedir. Məsələn, bp şirkətinin Səngəçal terminalında hasilat işləri üzrə rəhbəri İbrahim Terequlov jurnalistlərə bildirib ki, Cəbrayılda tikintisi planlaşdırılan 230 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası işə düşdükdən sonra bp şirkəti Azərbaycana verdiyi səmt qazının həcmini artıracaq. Yəni hazırda Səngəçal ərazisində gücü 22 MVA olan 7 turbin var. Onlardan 5-i "Azəri-Çıraq-Günəşli" yataqlar blokunu, biri "Şahdəniz-1"i, biri isə "Şahdəniz-2"ni elektrik enerjisi ilə təmin etmək üçündür. Cəbrayıldakı günəş-elektrik stansiyası fəaliyyətə başlayandan sonra isə bp elektrik enerjisini "Azərenerji" ASC-dən alacaq. Beləliklə, Səngəçaldakı turbinlər işini dayandıracaq. Nəticədə turbinlərin istismarına yönələn səmt qazı da Azərbaycana təhvil veriləcək. Bu həmçinin karbon emissiyasının azaldılması ilə bağlı qlobal öhdəliyi yerinə yetirmək baxımından da əhəmiyyətlidir.

Yeri gəlmişkən, xatırladaq ki, Azərbaycanın təbii qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu isə hələ yüz il bundan sonra özümüzü və bir sıra digər ölkələri qazla təmin etməyə imkan verən zəngin bir sərvətdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 11,3 faiz artıb

**Cari il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1milyon 706,5 min nəfər olmuşdur. Onlardan 891,7 min nəfəri iqtisadiyyatın dövlət, 814,8 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 19,0 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,4 faizi tikinti, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Bu ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 925,3 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Sənayenin qeyri-neft-qaz sektoru üzrə məhsul istehsalında 6 faiz artım qeydə alınıb

**Dövlət Statistika Komitəsi xəbər verir ki, bu ilin yanvar-avqust aylarında ölkə üzrə 45,1 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,4 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 6,0 faiz artmışdır.**

Sənaye məhsullarının 68,6 faizi mədənçıxarma, 26,2 faizi emal, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,6 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 5,3 faiz artmışdır.



Emal sektorunda da əsas məhsullar istehsalı üzrə artım qeydə alınmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur.

# Bakıda Səudiyyə Ərəbistanının milli bayramı qeyd edilib

Sentyabrın 20-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Krallıq elan olunması günü münasibətilə rəsmi qəbul təşkil edib.





AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli çıxış edib. Ölkəsinin Azərbaycanla əlaqələri möhkəmləndirmək kursunu gələcəkdə də davam etdirəcəyini bildirən səfir vurğulayıb ki, 1932-ci ildə Krallığın birləşməsindən sonra Səudiyyə Ərəbistanı sürətli inkişaf yolu keçib.

Səfir deyib ki, Səudiyyə Ərəbistanı Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. Bu gün ölkələrimiz arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Qeyd olunub ki, bu günədək hər iki ölkənin maraqlarına uyğun sazişlər və memorandumlar imzalanıb. Hazırda Səudiyyə-Azərbaycan əlaqələri bir çox sahədə, xüsusilə ticarət sahəsində inkişaf yüksək səviyyədədir.

Daha sonra maliyyə naziri Samir Şərifov çıxış edərək Azərbaycan Prezidentinin və hökumətinin Səudiyyə Ərəbistanı xalqına səmimi təbriklərini çatdırıb. Nazir bildirib ki, iki ölkə arasında qardaşlıq əlaqələri qarşılıqlı hörmət və islam irsinə söykənir, xalqlarımız bir-birinə tarixi, dini və mədəni köklərlə bağlıdır. Keçirilən yüksəksəviyyəli mühüm görüşlər ölkələrimizin siyasi-iqtisadi əlaqələrinin genişlənməsinə təkan verib. Səudiyyə Ərəbistanının ölkəmizdə qeyri-neft sektorunun ən böyük investorlarından biri olduğu diqqətə çatdırılıb.

S.Şərifov qeyd edib ki, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığı yüksək səviyyədədir. "Ölkələrimiz arasında əlaqələr yüksək səviyyədədir. Hər iki ölkənin dövlət başçılarının səyi nəticəsində əlaqələrimiz daha da inkişaf edir. Hər iki ölkənin əməkdaşlığı bir çox beynəlxalq təşkilatlarda da birlikdə inkişaf edir. Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi, siyasi, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq mövcuddur. Xüsusilə ticarət sahəsindəki inkişaf bizi sevindirir. Eyni zamanda bu ölkə Qarabağda bərpa və quruculuq işlərinə öz töhfəsini verir. Səudiyyə Ərəbistanı Azərbaycanın ərazi bütövlüyünə dəstək verib və buna görə Ermənistanla əlaqələr qurmamışdır", - deyə nazir vurğulayıb.

# Koronavirusun yeni dalğası da təhlükəlidir

**2023-cü ilin mayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19 pandemiyasının sona çatdığını elan etsə də, avqustda yoluxma halları yenidən artmağa başladı.**



Dünya əhalisinin immunitetinin formalaşmasına baxmayaraq, koronavirus dövr etməkdə davam edir. O, mutasiyaya uğrayaraq, yeni ştamların yaranmasına səbəb olur.

Tendensiya onu göstərir ki, yeni yaranmış hər ştamın yoluxduruculuq qabiliyyəti öncəkilərdən daha yüksəkdir. Bu isə qısa zamanda kütləvi yoluxmalara səbəb olur.

## Yoluxanların sayı 38 faiz artıb

ÜST-nin məlumatına görə, son zamanlar dünya üzrə COVID-19-a yoluxanların sayı 38 faiz artıb. Belə ki, Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda yoluxma sayında kəskin artım qeydə alınıb. Yoluxma sayının artmasına səbəb isə yeni ştamlardır.

Bir neçə gün bundan öncə qardaş ölkə Türkiyədə də "Eris" ("EG.5") virusu aşkarlanıb. Bu barədə Türkiyənin səhiyyə naziri Fahrettin Koca sosial şəbəkə hesabında məlumat verib. O bildirib ki, yoluxanların xarici ölkələrlə təmasları olub və onların hamısı eyni əyalətdəndir. F.Kocanın sözlərinə görə, bununla belə, yeni ştamın aşkarlanması ilə bağlı narahatlığa səbəb yoxdur: "Bu vəziyyət başqa ölkələrdə adi haldır. Bizdə də ola bilərdi. Yaşlılarımızı və xroniki xəstələrimizi qoruyacağıq".

ABŞ-də bu virusla bağlı vəziyyət daha ağırdır. Belə ki, ölkədə COVID-19-a yoluxma halları 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. ABŞ-də hər gün 650 mindən çox sakində virus aşkarlanır. Yaxın aylarda isə ölkə əhalisinin təxminən 10 faizinin bu virusa yoluxacağı gözlənilir. Son həftə ərzində ABŞ-də koronavirusa görə xəstəxanaya yerləşdirilənlərin sayı 8,7 faiz, ölüm halları isə 4,5 faiz artıb.

## 57 ölkədə yoluxma müəyyən edilib

2023-cü ildə COVID-19-un "Eris" və "Pirola" ("BA.2.86") ştamları ortaya çıxıb. Yüksək yoluxduruculuğa malik "Eris" sentyabrda 57 ölkədə müəyyən edilib. Ştamın yayılma tezliyində davamlı artım müşahidə edilir. Bu onun peyvənd və ya xəstəlikdən sonra yaranan anticisimlərdən yayınma qabiliyyəti ilə izah olunur. Ona görə də ÜST bütün dünyada sürətlə yayılmasına görə onu "narahatlıq doğuran variantlar" siyahısına daxil edib.

Mütəxəssislər hazırda "Eris"in yayılma tezliyində davamlı artım müşahidə edirlər. Bu onun peyvənd və ya xəstəlikdən sonra yaranan anticisimlərdən yayınma qabiliyyəti ilə izah olunur.

"Eris"i kəskin respirator viruslardan və allergiyadan fərqləndirmək çətindir. Ekspertlər düşünürlər ki, bu xəstəliklərin oxşarlıqları çox olduğuna görə, yoluxmanı öyrənməyin yeganə vasitəsi test verməkdir.

Yeni ştamlardan qorunmağın yolları isə dəyişməz olaraq qalır. İnsanların sıx olduğu yerlərdə tibb maska taxmaq, şəxsi gigiyenaya diqqət yetirmək və immuniteti güclü saxlamaq mütləqdir.

## "Pirola" peyvənddən sonrakı immuniteti aşmağa qadirdir

Əvvəlki viruslardan daha yoluxucu olan "Pirola" ştamı Danimarka, Fransa, Kanada, Böyük Britaniya, İsveç və ABŞ də daxil olmaqla, 10-dan çox ölkədə aşkar edilib. İlk dəfə bu il Hindistanda peyda olan yeni ştam digər subvariantlardan qısa müddət ərzində baş verən zülallardakı yüksək mutasiyaya görə fərqlənir. Bu isə "Pirola"nı hazırda dövriyyədə olan bütün ştamlar arasında ən yoluxucu edir. Əsas əlamətləri qızdırma, öskürək, başağrısı, boğaz ağrısı, ümumi halsızlıq, əzələ ağrıları və nəfəs almaqda çətinlikdir.

"Pirola" peyvənddən və ya əvvəlki xəstəlikdən sonrakı immuniteti aşmağa da qadirdir. Eyni zamanda tədqiqat məlumatlarının olmaması səbəbindən bu ştama qarşı peyvəndlərin effektivliyinin nə qədər azalacağını dəqiq söyləmək mümkün deyil. "Omikron" variantı üçün yenilənmiş peyvəndlər xəstəliyin ağır formalarını və xəstəxanaya yerləşdirilmələrin sayını azaltmaqda effektivdir. Hazırda ÜST "Pirola"dan ölüm halı qeydə almayıb.

"Pirola" variantı üçün yeni peyvəndlərin sentyabr-oktyabr aylarında buraxılacağı və insanlara tətbiq ediləcəyi barədə məlumatlar olsa da, hələlik bu barədə rəsmi açıqlama verilməyib.

## Ölkədə COVID-19-la bağlı son vəziyyət

Azərbaycan COVID-19-un yayıldığı ilk dövrdən etibarən virusla ən effektiv mübarizə aparan ölkələrdən olub. Həyata keçirilən mübarizə tədbirlərinin səmərəliliyi sayəsində ölkəmizdə yoluxma hallarının sayı minimuma enmiş, görülən qabaqlayıcı tədbirlər öz bəhrəsini vermişdi.

Azərbaycanın pandemiyaya qarşı ölkə daxilində ardıcıl mübarizə aparması beynəlxalq miqyasda böyük rəğbət doğurub. Ölkəmiz pandemiya istiqamətində bir sıra vacib və dəyərli təşəbbüslərlə çıxış etmiş, həmçinin dünyanın bütün təşkilatlarını, aparıcı dövlətlərini həmrəyliyə çağırmışdı. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə bağlı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının uğurla keçirilməsi, təşkilatın vaksinasiya ilə əlaqədar qətnamə qəbul etməsi koronavirusla mübarizəyə böyük töhfə olmuşdur. Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürüb və həmin qətnamə yekdilliklə qəbul olunub. Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi ÜST tərəfindən dəyərləndirilib, digər ölkələrə nümunə göstərilib.

Hazırda ölkəmizdə COVID-19 xəstəliyinin yeni ştamına yoluxma hallarına rast gəlinməyib. Azərbaycanda peyvəndlənmə faizi də qənaətbəxş hesab ediləcək səviyyədə olub.

İnsanların əksəriyyəti pandemiyanın arxada qaldığını düşünsə də, əslində, vəziyyət o qədər də ürəkaçan deyil. COVID-in dünyada müşahidə olunan artım tendensiyası Azərbaycandan da yan keçməyib. Son bir ayın statistikasına nəzərə saldıqda məlum olur ki, 7-13 avqustda Azərbaycanda COVID-ə 8 yoluxma qeydə alınıbsa, növbəti həftələrdə yoluxmada ciddi artım baş verib. Nəticədə son həftədə - 11-17 sentyabrda ölkə üzrə 142 yoluxma qeydə alınıb. Bu isə 17,75 dəfə artım deməkdir. Xüsusi vurğulamaq lazımdır ki, bu, rəsmi statistikadır, qeydiyyata düşməyən yoluxma sayı isə daha çoxdur. Belə ki, vətəndaşlar pandemiyanın bitdiyini düşünür, bu səbəbdən də özlərində narahatlıq hiss etdikdə test verməyi lazım bilmirlər.

Hər zaman olduğu kimi, COVID-19-un bütün ştamlarına qarşı risk qrupuna daxil olan şəxslər daha diqqətli olmalıdırlar. Risk qrupuna yanaşı və xroniki xəstəlikləri olanlar, peyvənd olunmayan şəxslər daxildir. Bildirilib ki, yaxın gələcəkdə statistikada ciddi artım müşahidə oluna bilər. Buna səbəb kimi məktəblərin açılması, yay tətilinin başa çatması və havaların soyuması göstərilir.

Vətəndaşların yaranmış vəziyyətin təhlükəli həddə çata biləcəyini nəzərə almaqla, test verilməsi, eləcə də COVID-ə yoluxmanın yüksək həddə olduğu vaxtlardakı kimi tələb olunan qaydalara ciddi riayət etmələri vacibdir. Əks halda, koronavirusun yeni dalğasının ciddi fəsadları ilə üzləşə bilərik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# Sağlıq olsun

Həkim məsləhəti



## Yüksək qan təzyiqi: necə qorunaq, necə sağalaq?

*Yüksək qan təzyiqi və ya hipertoniya xəstəliyi 40 yaşdan yuxarı olan hər üç nəfərdən birində müşahidə olunur. Yaş artdıqca xəstəliyin rastgəlmə tezliyi daha da artır. İldə 9,4 milyon insanın ölümünə səbəb olan xəstəliyin cavanlaşması ilə əlaqədar son dövrlərdə ciddi narahatlıqlar var. Xəstəliyin cavanlaşmasına əsasən artıq çəki, tərkibində ciddi xörək duzu yükü olan "fast food" qidaları, eyni zamanda kofein və taurinilə zəngin olan enerji içkiləri, nikotin və alkoqol istifadəsi səbəb olur. Bu xəstələrin yalnız 3-5 faizi tamamilə müalicə oluna bilir.*



Qan ürək vasitəsilə bədəndə dövr edir. Hər ürək vurğusu zamanı qan damarlara atılır və özünəməxsus təzyiq yaradır. Yəni qanın vurğu həcmi və onu qarşılayan damar elastikliyi qan təzyiqini yaradır. Normalda qan təzyiqi 120/80 mm.c.süt (millimetr civə sütunu) olmalıdır. Lakin 140/90 mm.c.süt olması artıq müalicəyə göstəriş sayılır. Bu halda mütəxəssisə müraciət edilərək əvvəlcə yüksək təzyiqin səbəbi araşdırılmalı, sonra isə müalicə taktikası seçilməlidir.

**Yüksək qan təzyiqi üçün risk faktorları hansılardır?**

- 40 yaşdan yuxarı insanlar;
- Qadınlar;
- İrsiyyətində yüksək qan təzyiqi olanlar;
- Qidalanma tərzi;
- Oturaq həyat tərzi;
- Artıq çəkinin olması;
- Stresli həyat tərzi;
- Siqaret;
- Alkoqol;
- Şəkərli diabet;
- Qanda xolesterinin yüksəkliyi;
- Bəzi dərmanlar və qida əlavələri.

**Qan təzyiqinin yüksək olması digər bir əlamətin yaranmasına səbəb ola bilərmi?**

Qan təzyiqi 180/110 mm.c.süt olmayınca ciddi bir əlamət verməz. Bilməliyik ki, 10 ildən çox davam edən hipertoniya xəstəliyi göz, ürək və böyrəklərdə ciddi dəyişikliyə səbəb olur. Həkim müayinəsi zamanı xəstəliyin müddətini təyin etmək üçün göz dibi, ürək müayinəsi, o cümlədən böyrəklər əvvəlcə yoxlanılmalıdır. Əgər bu orqanlarda dəyişiklik varsa, deməli, pasiyent ən azından beş ildir ki, bu xəstəlikdən əziyyət çəkir. O zaman pasiyentə məlumat verilir və tədbirlərin daha ciddi olması tövsiyə olunur. Əgər qan təzyiqiniz daim yüksəkdirsə, aşağıdakı əlamətlər müşahidə edilə bilər.

- Tez-tez sidiyə getmə;
- Bulanıq və ya ikigörmə;
- Ayaqlarda şişkinlik;
- Təngnəfəslik;
- Halsızlıq, yorğunluq, həvəssizlik;
- Qulaqlarda səs-küy;
- Burun qanaması;
- Ürək ritmində dəyişiklik;
- Baş hərlənməsi və başağrısı.

**Yüksək qan təzyiqi ilə müşayiət olunan xəstəliklər hansılardır?**

Ümumiyyətlə, ürək vurğusunun artmasına, damarların daralmasına, böyrəklərdən xörək duzunun atılmasına səbəb olan bütün xəstəlikləri yüksək təzyiq yaradır. Məsələn, zob xəstəliyində ürək vurğularının sayı artır, bu isə yüksək təzyiq yaradır. Belə hallarda əsas xəstəliyi müalicə etməklə yanaşı, ürək vurğularını azaldan dərman preparatı verilməsi yüksək təzyiqi müalicə edir. Başqa bir misal: böyrəküstü vəzi şişlərində artıq miqdarda istehsal olunan aldosteron hormonu böyrəklərdən duzun atılmasının qarşısını alır və yüksək təzyiq yaradır. Bu hormonun bloklayıcı dərmanını verməklə yüksək təzyiqi müalicə etmək olur. Bundan başqa, ən çox rast gəlinən təzyiq səbəbləri aşağıdakılardır:

- Ürəkdən çıxan damarlarda darlıq olanda;
- Böyrəküstü vəzi xəstəliklərində;
- Böyrək şişlərində;
- Böyrəyin kəskin və xroniki çatışmazlığında;
- Böyrək damarlarının darlığında;
- Tiroid (Zob) xəstəliklərində;
- Şəkər xəstəliyində

**Yüksək qan təzyiqini necə nizamlamaq olar?**

Əgər sizdə qan təzyiqinin səbəbi bilinmirsə, deməli, dünya əhalisinin 90-95 faizini əhatə edən essensial hipertoniyadan əziyyət çəkirsiniz. Belə hallarda xörək duzu istifadəsini azaltmaqla asanlıqla təzyiqinizi nizamlaya bilərsiniz. Bəzən xörək duzu dedikdə süfrəyə qoyulan duzun bişirilmiş xörəyə əlavə edilməsi başa düşülür. Lakin nəzərdən qaçan bəzi qidalar da ciddi duz mənbəyi sayılır. Pendir, kolbasa, sosiska, səhərlər soyutma yumurtanın üzərinə əlavə edilən duz, pomidor, xiyar salatına əlavə edilən duz, turşular və sairə. Ümumiyyətlə, tərkibində duz olan təbii və ya yarımfabrikat bütün qidalardan istifadə etməmək əsas şərtlərdən biridir.

Əgər artıq çəkiniz varsa, yəni qarın çevrəniz normadan artıqdırsa, deməli, təcili olaraq çəki itirməyə səy göstərməlisiniz. 10 kq çəkini azaltmaq 10-20 mm.c.süt təzyiqinizi aşağı salmağa səbəb olar.

Həftədə 90-150 dəqiqəyə (günlük 30 dəqiqə) gəzmək qan təzyiqinizi üç gün müddətində nizamda saxlaya bilər.

Siqaret və alkoqolun minimallaşdırılması, bir müddət sonra isə ümumiyyətlə, dayandırılması qan təzyiqinizi 20-40 mm.c.süt qədər azalda bilər.

**Yüksək qan təzyiqini azaldan təbii vasitələr**

ABŞ-nin Mayo Clinic həkimlərinin tərtib etdiyi DASH (Dietary Approaches to Stop Hypertension) pəhrizi hazırda bütün dünyada tətbiq edilir. Bu pəhrizə duzsuz və heyvani yağların az olduğu, eyni zamanda meyvə və tərəvəzlərlə zəngin olan qidalanma aiddir. Bəs hansı qidalar təzyiqi aşağı salmağa kömək edir:

- Limonlu su, sarımsaq, banan, kakao, qovun, çuğundur suyu kimi qidalar təzyiqi aşağı salır.
- Dandelion, kəklikotu, lavanda, kərəviz və qatırquyruğu ilə hazırlanan çaylar qan təzyiqini aşağı salaraq tarazlaşdırır.

**Elgün HƏZİYEV,**
***Milli Onkologiya Mərkəzinin Nefroloji Kabinetinin və Tədris Terapevtik Klinikanın Efferent Terapiya Mərkəzinin rəhbəri***

Şəfalı bitkilər

## Təzyiqin çarəsi

Ətirli və dadlı qreypfrut antioksidant və liflə zəngin meyvədir. Araşdırmalar göstərir ki, qreypfrutun arıqlamaqdan tutmuş, ürək xəstəlikləri riskini azaltmağa qədər bir çox faydası var. Ürək sağlamlığı üçün əvəzolunmaz meyvə sayılan qreypfrut yüksək qan təzyiqinə və xolesterinə qarşı faydalıdır. Kapilyar damarlarda qan dövranını sürətləndirir.

Tərkibində çoxlu lif, 15-dən çox vitamin və mineral olan dadlı meyvənin müntəzəm istifadəsi immunitet sistemini də dəstəkləyir. C vitamini ilə zəngin meyvələrdən biri olan qreypfrut hüceyrələri zərərli bakteriya və viruslardan qoruyur. Bundan əlavə, qreypfrut yemək xəstəliklərdən daha tez sağalmağa kömək edir.

Yarım qreypfrutda 2 qram lif var. Araşdırmalara görə, qreypfrut həzm müddətini artıran lifləri sayəsində iştahı idarə edən təsirli meyvələrdən biridir.

Bu meyvə böyrək daşlarının əmələ gəlməsinə qarşı profilaktik təsir göstərir. Mütəmadi olaraq orta səviyyədə yeyilməsi tövsiyə olunur.

Mütəxəssislər qreypfrutun bir çox faydası olduğunu, ancaq bu meyvədən bəzi dərmanlarla birlikdə istifadə edərkən diqqətli davranmaq lazım gəldiyini bildirirlər. Həmin dərmanlar arasında qan təzyiqi dərmanları da var.

Bilmək faydalıdır

## Bu yollarla qurtulun



**Siqareti tərgitmək:** Siqaret çəkdikdən sonra qan təzyiqi 15-30 dəqiqə ərzində qəfil yüksəlir. Ürək-damar risklərini 2-3 dəfə artıran bu vəziyyət insanın lipid profilinin pisləşməsinə və insulin müqavimətinin artmasına səbəb olur. Siqareti tərgitmək yüksək təzyiq dərmanlarına qarşı müqaviməti azaltmaq üçün vacibdir;

**Çəkini tarazlaşdırmaq:** Bədən kütlə indeksinin 27 və yuxarı olması qan təzyiqini artırır. Tədqiqatlar göstərib ki, yüksək təzyiq xəstələrinin atdığı ilk 5 kilo çəki qan təzyiqini aşağı salır. Bundan əlavə, ilk 5 kilodan sonra itirilən hər 1 kilo çəki qan təzyiqinin səviyyəsinin 1,6 mm.c.süt və 1,3 mm.c.süt azalmasına səbəb olur;

**Duzdan istifadənin məhdudlaşdırılması:** Yüksək qan təzyiqi xəstələrində xörək duzunun istifadəsinin məhdudlaşdırılması son dərəcə vacibdir. Gündəlik süfrə duzu istifadəsi 6 qram ilə məhdudlaşdırılmalıdır. Tədqiqatlar göstərib ki, yüksək qan təzyiqi xəstələrində xörək duzunun 4,7-5,8 qram ilə məhdudlaşdırılması zamanı yüksək qan təzyiqinin 4,8 mm. c. süt, aşağı təzyiqin isə 2,5 mm. c.süt azaldığı müşahidə edilir. Odur ki, həddindən artıq duzdan, işlənmiş qidalardan istifadə etməkdən çəkinmək lazımdır. Bu məhdudiyyət yüksək təzyiq dərmanlarının effektivliyini də artırır;

Kalium qəbulu: Təzə tərəvəz və meyvələrdən alınan kaliumun qan təzyiqini aşağı saldığı məlumdur. Müntəzəm olaraq 90 mmol kalium qəbul etdikdə yüksək qan təzyiqi 4,4 mm. c. süt, aşağı təzyiq isə 2,4 mm.c. süt azalır.

**İdman:** Oturaq həyat sürən insanlarda yüksək təzyiq riski aktiv həyat sürənlərə nisbətən 20-50 faiz daha yüksəkdir. Həftədə 3-4 dəfə yarım saat ərzində həyata keçirilən və hədəflənən ürək döyüntüsünün 60 ilə 70 faiz artmasını təmin edən məşqlər qan təzyiqini 4-8 mm.c.süt azaldır. Lakin bu tip məşqlərə başlamazdan əvvəl həkim rəyi alınmalıdır;

**Streslə mübarizə:** Əhvalın dəyişməsi və emosional stres qan təzyiqinin kəskin artmasına səbəb olur. Psixoterapiya, yoqa və meditasiya kimi terapiya üsulları qan təzyiqinin qısamüddətli azalmasına səbəb ola bilər. Bununla belə, bu üsulların uzunmüddətli təsirləri ilə bağlı hələ kifayət qədər tədqiqatlar yoxdur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## açıq tender elan edir

Lənkəran rayonu Viyən kənd 432 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1800,00 (bir min səkkiz yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir), (Notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (Notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **26 oktyabr 2023-cü il saat 16:00-a,** tender təklifi və tender təklifinin bank təminatını **03 noyabr 2023-cü il saat 16:00-a** qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **06 noyabr 2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## açıq tender elan edir

Quba rayonu Hacıhüseynli kənd 528 şagird yerlik tam orta məktəbin tikintisi işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **25 oktyabr 2023-cü il saat 12:00-a,** tender təklifi və tender təklifinin bank təminatını **02 noyabr 2023-cü il saat 12:00-a** qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **3 noyabr 2023-cü il saat 12:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

"Şərur" MTK ilə Səmavil Məhəmməd qızı Osmanova arasında bağlanmış Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Əsəd Əhmədov, 24 B küçəsi, 962 nömrəli mənzilə dair müqavilə itdiyi üçün etibarsız sayılır.


## OXUCULARIN NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |


AZƏRBAYCAN
Qarabağ qanunsuz silahlı dəstələrdən təmizlənir

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## açıq tender elan edir

Sabirabad rayonu, Z.Əliyev adına Quruzma kənd 528 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi 18.
Tel.: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2500,00 (iki min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 10 oktyabr 2023-cü il saat 15:00-a, tender təklifi və tender təklifinin bank təminatını 18 oktyabr 2023-cü il saat 15:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 19 oktyabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-19°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 millimetr civə sütunu, nisbi rütubət 55-65 faiz təşkil edəcək.


Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5542
Sifariş 2393

Qiyməti 40 qəpik